RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 266 (8289) ŞƏNBƏ, 30 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Xalq İlham Əliyev siyasətinə alternativ görmür

## YAP-ın növbədənkənar parlament seçkiləri təşəbbüsü ölkənin tərəqqisinə müsbət təsirini göstərəcək, Prezidentin islahatlar kursuna böyük töhfə verəcək

"Bu gün əsl müstəqillik dövrüdür. Çünki bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq".

Son 16 il ərzində Azərbaycanın modernləşib yeni keyfiyyət mərhələsinə qədəm qoymasını, siyasi, iqtisadi həyatının kökündən dəyişməsini təmin edən və dövlətlə xalqı vahid bir platformada birləşdirən cənab İlham Əliyev noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə qazanılan uğurları dəyərləndirərkən Azərbaycanı istəməyən qüvvələrə bir daha mesaj ünvanladı.

### Prezident: "Heç kim bizim işimizə müdaxilə edə bilməz"

2003-cü ildən bugünədək nümayiş etdirdiyi praqmatizm, çevik və ağıllı dövlət siyasəti, sistemli və ardıcıl yanaşma ilə Azərbaycanın müasir inkişafını təmin edən Prezident İlham Əliyevin milli maraqların qorunmasında nümayiş etdirdiyi uzaqgörənlik, prinsipiallıq sayəsində ölkəmizin beynəlxalq nüfuzu gündən-günə yüksəlib. Bu gün Azərbaycanın dünya birliyində etibarlı tərəfdaş kimi qəbul edilməsi cənab İlham Əliyevin uğurlu diplomatiyasının təntənəsidir.

Prezidentin söylədiyi kimi, iqtisadi baxımdan son illərdə Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Çünki son illərdə Prezidentin innovasiyayönümlü, yüksək rəqabətqabiliyyətli istehsala əsaslanan sosial-iqtisadi siyasəti Azərbaycan iqtisadiyyatını keyfiyyətcə yeni, daha yüksək mərhələyə çıxarıb.

Bu, bir həqiqətdir ki, tarixin bütün dövrlərində Azərbaycanın nüfuzu yüksəldikcə, beynəlxalq təşkilatlardakı sözü, çəkisi artdıqca ölkəmizi istəməyən qüvvələr təlaşa düşürlər və yalan-böhtan kampaniyasını işə salmaqla Cənubi Qafqazın lider dövlətini gözdən salmağa can atırlar.

Məhz buna görə də dövlət başçısı yubileydə üzünü xalqa tutaraq "Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz. Nə qədər çalışsalar, nə qədər əlləşsələr, nə qədər yalan-böhtan yaysalar yapışmır bizə" söylədi.

Əlbəttə ki, xalq Azərbaycana tarixinin ən qüdrətli dövrünü yaşadan hakimiyyətə, onun liderinə güvənir, inanır. Keçirilən bütün rəy sorğuları da bunu təsdiqləyir. Əhalinin mütləq əksəriyyəti cənab İlham Əliyev siyasətini dəstəkləyir, bu siyasətə alternativ görmür.

Çünki bu gün Azərbaycan yeni inkişaf dövrünü yaşayır. Bir vaxtlar elektrik enerjisini belə idxal edən dövlət bu gün dünyanın aparıcı neft-qaz ixracatçısı kimi tanınır. Son 16 ildə iqtisadiyyata yatırılan 265 milyard dollarlıq investisiya, 50 milyard dollara yüksələn valyuta ehtiyatları bir daha göstərir ki, Azərbaycana rəğbət getdikcə artmaqdadır. Buna misal kimi, 8 il öncə 155 ölkənin müsbət rəyini almaqla Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsini göstərmək yetərlidir.

Ardı 4-cü səh.

# Azərbaycan Dövlət Neft Fondu ölkəmizin inkişafı üçün müstəsna əhəmiyyətə malik olan bir qurumdur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da İsrafil Məmmədovu yeni vəzifəyə - Dövlət Neft Fondunun icraçı direktoru təyin olunması ilə əlaqədar qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Azərbaycan Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov Prezidentin köməkçisi vəzifəsinə təyin edilmişdir. Siz on ildən çoxdur ki, direktor müavini vəzifəsində işləyirsiniz, təcrübə toplamısınız. Mən qərara gəldim ki, sizi icraçı direktor vəzifəsinə təyin edim. Bu, böyük etimaddır. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız.

Dövlət Neft Fondu bizim strateji aktivimizdir. Bu il biz fondun yaradılmasının 20-ci ildönümünü qeyd edəcəyik. Əlamətdar hadisə ondan ibarətdir ki, "Çıraq" platformasından ilk neft çıxarılandan iki il sonra - 1999-cu ildə Azərbaycanda Dövlət Neft Fondu yaradılmışdır. Fondun yaradılması Ulu Öndər Heydər Əliyevin tarixi qərarıdır. Bu gün bu qərar onu göstərir ki, nə qədər düzgün və vaxtında atılmış bir addım idi. Onu da bildirməliyəm ki, Neft Fondunun yaradılması ilə bağlı təklifi Ulu Öndərə mən vermişdim. O vaxt hökumətdə müxtəlif fikirlər var idi və hökumət üzvlərinin bəziləri bunun əleyhinə çıxmışdılar. Onların təklifi ondan ibarət idi ki, neftdən gələcək bütün gəlirlər büdcəyə daxil olsun və hər il xərclənsin. Əgər bu yanaşma seçilsəydi, bu gün Dövlət Neft Fondumuzda pul olmayacaqdı. Mən bu təklifin əleyhinə çıxdım.

Ardı 2-ci səh.

# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının açıqlaması

**Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının yeni strukturu təsdiq olunub.**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının işinin təkmilləşdirilməsi və qarşıya qoyulan vəzifələrdən irəli gələrək strukturun tərkibi yenidən formalaşdırılıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Respublikası Prezidentinin yeni köməkçiləri və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının şöbə müdirləri təyin olunub.

Qarşıya qoyulan vəzifələrə uyğun olaraq, eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası haqqında Əsasnamənin layihəsi bir ay müddətində hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim ediləcək.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının yeni strukturu ilə bağlı müvafiq sənədlər Azərbaycan Respublikası Prezidentinin rəsmi saytında (www.president.az) yerləşdirilib.




# Dinlərarası və mədəniyyətlərarası dialoqun önəmli platforması

Elm və texnologiyalar maddi aləmə təsir imkanlarını genişləndirdikcə insanın mənəvi dünyası ilə bağlı problemlər də artır. Bəşəriyyət müasir inkişafın mövcud səviyyəsində mədəniyyətlər arasında toqquşmalar, dini dözümsüzlük, ksenefobiya kimi mənəvi xəstəliklərlə üz-üzə dayanır.

Ona görə də müasir dünyamızda insanın qarşısında duran bəşəri problemlərin həlli üçün mədəniyyətlər, o cümlədən dinlər arasında dialoqa nail olmaq ən mühüm vəzifədir.

Dünya dini liderlərinin Bakıda keçirilən II sammiti məhz bu məqsədə xidmət edirdi. İlk dəfə təxminən 9 il əvvəl - 2010-cu ilin aprelində də məhz paytaxtımızda keçirilmiş I sammitdən sonra bu, Azərbaycanın evsahibliyi etdiyi ikinci belə tədbir idi.

Azərbaycanın bu gün islam sivilizasiyasının əsas mərkəzlərindən birinə çevrilməsi tarixi təkamül proseslərinin məntiqi yekunu kimi mümkün olub. Əsrlərin sərt sınaqlarından üzüağ çıxan xalqımız tarixinin ən keşməkeşli, çətin anlarında belə insanlığın yüksəlişinə, mənəviyyatın təntənəsinə xidmət edən dini dəyərlərdən dönməyib, onları daim uca tutub. 70 il tərkibində yaşadığımız sovet imperiyası öz ideologiyasına uyğun ateizm təbliğatı apararaq xalqımızı tarixi keçmişindən, dini və milli-mənəvi dəyərlərindən uzaqlaşdırmaq istəsə də, buna əsla nail ola bilməyib.

### Həm həyat tərzi, həm də dövlət siyasəti

II sammit dünyada sülhün, anlaşmanın, inkişaf mühitinin əldə olunması üçün son illər davamlı şəkildə qlobal tədbirlərə evsahibliyi edən, Ulu Öndər Heydər Əliyevin ümumbəşəri dəyərlər əsasında müəyyənləşdirdiyi milli dövlətçilik prinsiplərinə sadiqliklə mədəniyyətlər arasında dialoq məkanına çevrilən Azərbaycanın bu sahədə həyata keçirdiyi beynəlxalq təşəbbüslərin davamı kimi qiymətləndirilməlidir.

Bu təşəbbüslər müstəqillik tariximizin xoş ənənələrinə çevrilib.

Ardı 5-ci səh.

## Milli Məclisin iclasında

# Parlament 2020-ci ilin dövlət büdcəsini qəbul etdi

Noyabrın 29-da Milli Məclisin növbəti plenar iclası keçirildi. İlk olaraq "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi üçüncü oxunuş üçün müzakirəyə çıxarıldı.

### 2020-ci il dövlət büdcəsi ölkənin milli maraqlarına cavab verir

Məsələ ilə bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verdi. Qeyd etdi ki, gələn ilin dövlət büdcəsi ilə bağlı qanun layihəsi Milli Məclisin plenar və komitə iclaslarında ətraflı müzakirə olunmuş və deputatlar tərəfindən müsbət qiymətləndirilmişdir. Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar ölkənin davamlı və keyfiyyətli inkişafına xidmət edir, vətəndaşların sosial məsələlərinin həlli üçün yeni imkanlar açır. 2020-ci ilin dövlət büdcəsi "Büdcə sistemi haqqında" qanunun tələblərinə tamamilə cavab verir.

Qeyd olundu ki, deputatlar tərəfindən irəli sürülən təkliflər Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Gömrük Komitəsi tərəfindən səmimiyyətlə qarşılanmış və onlara münasibət bildirilmişdir.

Ardı 3-cü səh.

# Azərbaycan Dövlət Neft Fondu ölkəmizin inkişafı üçün müstəsna əhəmiyyətə malik olan bir qurumdur

Əvvəli 1-ci səh.

Sübut etməyə çalışırdım və buna nail oldum ki, məhz vəsaiti şəffaf şəkildə saxlamaq, ölkəmizin strateji istiqamətlərinə yönləndirmək və gələcək nəsillər üçün qoruyub saxlamaqdan ötrü mütləq Dövlət Neft Fondu yaradılmalıdır. Mənim təşəbbüsümlə Azərbaycan dövlət qurumlarının nümayəndələrindən ibarət heyət dünyanın müxtəlif ölkələrinə ezam edilmiş və orada oxşar fondların fəaliyyəti ilə tanış olmuşdur. Bundan sonra biz dünyada mövcud olan ən şəffaf və ən işlək model üzərində dayanıb onu qəbul etmişik və ötən 20 ilin təcrübəsi onu göstərir ki, bu, yeganə düzgün qərar idi. Deyə bilərəm ki, bu, tarixi qərar idi. Çünki Dövlət Neft Fondunun vəsaiti - orada toplanan, neftdən əldə edilmiş və hazırda artıq qazdan əldə edilmiş gəlirlər ölkəmizin ümumi inkişafını böyük dərəcədə şərtləndirir.

Biz ölkə qarşısında duran önəmli sosial layihələri icra edə bilmişik. Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması məhz Dövlət Neft Fondunun vasitəsilə icra edilir. Bu məqsədlər üçün milyardlarla dollar vəsait xərclənibdir. Hər il Dövlət Neft Fondundan büdcəyə edilmiş transfertlər hesabına biz sosial layihələri icra edə bilirik, bu, maaşların, pensiyaların, müavinətlərin artırılmasına imkan yaradır. Eyni zamanda, ölkəmiz üçün strateji sayılan sahələri də Neft Fondu maliyyələşdirir. Onların arasında təhsillə bağlı olan layihələr var. Azərbaycan gənclərinin dünyanın aparıcı ali məktəblərində təhsil alması ilə bağlı təşəbbüs də fond tərəfindən təmin edilib. Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi", digər önəmli strateji layihələr, qazma qurğularının tikintisi - bütün bunlar Dövlət Neft Fondunun vəsaiti hesabına icra edilib.

Bir sözlə, deyə bilərəm ki, bu gün Azərbaycan Dövlət Neft Fondu ölkəmizin inkişafı üçün müstəsna əhəmiyyətə malik olan bir qurumdur. Eyni zamanda, fondumuzun beynəlxalq imici də çox müsbətdir. Təsadüfi deyil ki, bir neçə il bundan əvvəl fond BMT-nin mükafatı ilə təltif edilmişdir. Onu da bildirməliyəm ki, mənim təşəbbüsümlə Azərbaycan o vaxt Böyük Britaniyanın Baş Naziri tərəfindən irəli sürülmüş təşəbbüsə qoşuldu. Təşəbbüsün adı Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsü idi. Azərbaycan bu təşəbbüsə qoşulan və onun bütün meyarlarını təmin edən ilk ölkələrdən idi. Uzun illər biz bu təşkilat çərçivəsində fəaliyyət göstərmişdik. Ancaq görəndə ki, artıq bu təşkilat öz mahiyyətini itirir, burada siyasiləşmə prosesi gedir və Azərbaycana qarşı qeyri-obyektiv, qərəzli yanaşma tətbiq olunur, biz məsələ qaldırdıq ki, əgər buna son qoyulmasa, Azərbaycan bu təşkilatdan çıxacaqdır. O vaxt mən bunu bildirəndə, sözün düzü, təşkilatın rəhbərliyi buna o qədər də inanmadı. Yadımdadır, o vaxt mənim təşkilatın rəhbər işçiləri ilə görüşüm keçirilmişdir və mən açıq dedim ki, mənim sözümlə əməlim arasında fərq yoxdur. Əgər deyirəmsə, biz buradan çıxacağıq və belə də oldu. O qərarı biz qəbul etdik, o, asan qərar deyildi. Çünki biz bu təşəbbüsə qoşulan ilk ölkələrdən biri kimi bu təşkilatın formalaşmasında da önəmli rol oynamışdıq. Ancaq həyat göstərdi ki, nə qədər düzgün addım atıldı. Bizdən bir qədər sonra Amerika Birləşmiş Ştatları da bu təşəbbüsdən çıxdı və beləliklə, Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsü adlandırılan qurum tamamilə nüfuzdan düşdü və bu gün onun adı heç yerdə çəkilmir. Bu təşkilatda üzvlüyümüz, əslində, bizim niyyətimizə o qədər də böyük təsir etmədi. Çünki şəffaflıq bizim şüurlu seçimimizdir və bu gün Dövlət Neft Fondu dünyadakı suveren fondlar arasında ən şəffaf, ən səmərəli işləyən fondlardan biridir. Mən yaxşı bilirəm ki, buna oxşar bəzi fondlar son vaxtlar böyük itkilərə məruz qalmışdır, çünki onlar çox riskli siyasət aparırdılar, daha çox pul qazanmaq əzmində idilər. Bizim isə yanaşmamız, - mən bunu həmişə demişdim, - konservativ olmalıdır, mühafizəkar olmalıdır. Bizim əsas vəzifəmiz vəsaiti qorumaqdır və vəsaiti riskli olmayan alətlərə yatırmaqdır. Biz indi artıq çoxşaxəli valyuta səbətini əldə etmişik və burada da valyuta məzənnəsinin dəyişkənliyi bizim vəsaitimizə təsir etmir. Biz qızıla böyük yatırım etmişik, daşınmaz əmlaka böyük yatırım etmişik, fondun vəsaiti coğrafi baxımdan da çoxşaxəlidir. Yəni biz özümüzü mümkün olan bütün risklərdən qoruduq. Ən önəmlisi ondan ibarətdir ki, 20 il ərzində biz vəsait itirmədik və fondun vəsaitini ildən-ilə artırırıq. Hətta böhranlı, devalvasiyaya uğradığımız illərdə də fondun vəsaiti azalmadı. Mən imkan vermədim. Biz xərcləri azaltdıq, böyük qənaət tədbirlərinə yol açdıq, strateji valyuta ehtiyatlarımızı qoruduq və onları artırdıq. Deyə bilərəm ki, bu, çox nadir hallarda baş verən hadisədir. Çünki o dövrdə, neftin qiymətinin kəskin - 4 dəfə düşməsi dövründə bütün suveren fondlar böyük pullar itirdi. Milyardlarla, on milyardlarla dollar itirildi. Biz isə itirmədik, ona görə ki, çox düşünülmüş siyasət aparırıq.



Mən çox şadam ki, fondun idarəetmədən əldə edilən gəlirləri artır. Bu, çox yaxşı göstəricidir. Bu il, - hələ il başa çatmayıb, - Dövlət Neft Fondunun gəlirləri 4 milyard dollardan çox artıbdır. Bunun 1,8 milyard dolları məhz idarəetmədən əldə edilmiş gəlirlərdir. Yəni bu, böyük vəsaitdir. Fondun düzgün siyasəti və vəsaitin düzgün yerləşdirilməsi, bax, belə imkanlar yaradır. Əminəm ki, bizim valyuta ehtiyatlarımız ildən-ilə artacaq. Hazırda bizim strateji valyuta ehtiyatlarımız 50 milyard dollardan çoxdur. Bu, rekorddur, tarixi göstəricidir. Bu göstərici məhz ona görə önəmlidir ki, o, bizim ümumi daxili məhsulumuzdan da çoxdur. Belə hallar indi çox nadir ölkələrdə müşahidə olunur. Eyni zamanda, bizim xarici borcumuz ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir və biz bu göstəriciyə görə dünyada doqquzuncu yerdəyik. Biz gələn ilin büdcəsində neftin qiymətini 55 dollar səviyyəsində nəzərdə tuturuq. Bu da çox mühafizəkar yanaşmadır. Hazırda "Azeri Light" neftinin qiyməti 70 dollara yaxınlaşır, biz 55 götürük. Çünki daha çox pul yığılsın. Məsələn, biz 65 götürsək, onda bu pul transfer şəklində büdcəyə gələcək və xərclənəcək. Ehtiyac yoxdur. İndi biz şəffaflıq, dürüstlük, islahatlar nəticəsində büdcəmizi digər sahələr vasitəsilə təmin edirik. Vergi və gömrük orqanları on ay ərzində 850 milyon manat əlavə vəsait toplayıblar. İlin sonuna qədər vaxt var, bu, artacaq. Ona görə biz Neft Fondunun gəlirlərinə qənaət etməliyik. Yəni bir sözlə, Azərbaycanda bir çox sahələrdə olduğu kimi, bu sahədə də çox düzgün yanaşma, düşünülmüş siyasət və xalqın maraqlarına uyğun atılan addımlar bax bu gözəl nəticəni əldə etməyə imkan verdi.

Mən fondun fəaliyyətini yüksək qiymətləndirirəm. Məhz buna görə fondun icraçı direktoru Şahmar Mövsümov mənim tərəfimdən Prezidentin köməkçisi vəzifəsinə təyin edilib. Əminəm ki, o, köməkçi kimi islahatların dərinləşdirilməsi istiqamətində önəmli rol oynayacaqdır.

Sizə isə tövsiyəm ondan ibarətdir ki, əldə olunmuş uğurları davam etdirəsiniz. Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Dövlət Neft Fondu həm öz aktivlərini artırmalı, onları əmniyyətli şəkildə yerləşdirməlidir. Strateji resursumuz olan neft fondumuz daim ölkəmizin, xalqımızın mənafeyi üçün çalışmalıdır.

Artıq il başa çatır. Bu il əldə edilmiş nailiyyətlər və gələn il planlaşdırılan addımlar haqqında məlumat verin.

**İsrafil MƏMMƏDOV:** Möhtərəm cənab Prezident. İlk növbədə göstərdiyiniz bu böyük etimada görə Sizə dərin təşəkkürümü bildirirəm. Siz dediyiniz kimi, bu il Azərbaycan Respublikasının Dövlət Neft Fondu Ulu Öndər tərəfindən yaradılmasının 20 illiyini qeyd edir. Qeyd etdiyiniz kimi, bu 20 il ərzində Dövlət Neft Fondu aktivlərin ildən-ilə artan, beynəlxalq səviyyədə nüfuzlu və şəffaflığın təmin edilməsi baxımından digər dövlətlərlə öz təcrübəsini bölüşməyə qadir olan maliyyə qurumuna çevrilibdir.

Möhtərəm cənab Prezident, Sizin hər zaman verdiyiniz yüksək qiymət bizim üçün böyük şərəfdir. Biz - Dövlət Neft Fondunun kollektivi də həmişə fondun Sizin qarşınızda götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində əlindən gələni əsirgəməyib. Təbiidir ki, bu nailiyyətlərin heç biri Sizin dəstəyiniz olmadan mümkün olmazdı. Fondumuzun bütün kollektivi də daim Sizin diqqətinizi hiss edib. Siz bütün işlərimizdə bizə dəstək olmusunuz.

Möhtərəm cənab Prezident, Sizi əmin edirəm ki, göstərdiyiniz bu böyük etimadı doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm. Çox minnətdaram, cənab Prezident.

Siz qeyd etdiyiniz kimi, bu il fondun vəsaiti 10 faiz artıb və ilin axırına 42,5 milyard dollar həcmində gözlənilir. Qeyd etdiyiniz kimi, fondun tarixində investisiya gəlirləri ilk dəfə olaraq 1,8 milyard dolları keçib. Bir daha Sizi əmin etmək istərdim ki, fondun investisiya portfelinin daha da şaxələndirilməsi və risklərin azaldılması istiqamətində əlimdən gələni əsirgəməyəcəyəm.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Mən əldə edilmiş nailiyyətləri yüksək qiymətləndirirəm. O cümlədən, bildirmək istəyirəm ki, mən Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində dünyanın aparıcı fondlarının rəhbərləri ilə görüşlər keçirmişəm və çox böyük məmnunluq hissi ilə deyə bilərəm ki, onların da fondumuz haqqında fikirləri çox müsbətdir. Azərbaycan Dövlət Neft Fondu nəinki ölkə ərazisində önəmli layihələr icra edir, eyni zamanda, dünyanın aparıcı fondları ilə də, - o fondların vəsaiti yüz milyardlarla ölçülür, - əməkdaşlıq edir və onlarla birlikdə müxtəlif sərmayə layihələrində iştirak edir. Bu, fondun ilk növbədə nə qədər səmərəli təşkilat olduğunu göstərir. Digər tərəfdən, dünyanın vəsaiti yüz milyardlarla ölçülən aparıcı fondları öz reputasiyalarına çox böyük həssaslıqla yanaşırlar və onlar üçün pul əsas deyil. Onlar üçün əsas reputasiya və şəffaflıqdır.

Bizim üstünlüyümüz ondadır ki, fondumuz təkcə bir xəzinə kimi yox, doğrudan da önəmli beynəlxalq təşkilat kimi ölkəmizin imicinə çox müsbət təsir göstərir. Hesab edirəm ki, gələcəkdə dünyanın aparıcı maliyyə qurumları ilə bizim əməkdaşlığımız dərinləşməlidir. Fondun investisiya portfelinin şaxələndirilməsi istiqamətində indi aparılan işlər qənaətbəxşdir. Ancaq həyat yerində durmur, yeni alətlər meydana çıxır, yeni sərmayə yerləri maraq doğurur. Ona görə siz bu sahədə də çox çevik siyasət aparmalısınız. İndi dünyada iqtisadi inkişaf qeyri-bərabər şəkildə gedir. Bəzi ölkələrin iqtisadiyyatı daha böyük inkişafla artır. Ona görə biz çox çevik siyasət aparmaqla daha çox gəlir əldə etmək üçün ancaq azriskli aktivlərə fikir verməliyik.

İndi fondun komandası da çox təcrübəlidir, uzun illərdir ki, işləyir. Siz də on ildən çoxdur ki, müavin vəzifəsində işləyirsiniz. Əminəm ki, müsbət dinamika davam etdiriləcəkdir. Sizi təbrik edirəm və uğurlar arzulayıram.

**İsrafil MƏMMƏDOV:** Çox sağ olun, çox minnətdaram.

---

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının strukturunun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının strukturu" təsdiq edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

2.1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası haqqında Əsasnamənin layihəsini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyi istisna olmaqla, Administrasiyanın digər struktur bölmələrinin ştat cədvəlini bir ay müddətində təsdiq etsin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

---

## "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının strukturunun təsdiqi və işçilərinin say həddinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 30 may tarixli 2922 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının strukturunun təsdiqi və işçilərinin say həddinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 30 may tarixli 2922 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 944, № 6, maddə 1178; 2018, № 1, maddə 67, № 2, maddə 309, № 4, maddələr 729, 781, № 5, maddə 1092, № 6, maddə 1274, №11, maddə 2405; 2019, № 4, maddələr 669, 686, № 6, maddə 1072, № 7, maddə 1283) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

---

## A.S.Ələkbərovun Azərbaycan Respublikası Prezidentinin köməkçisi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Sahib oğlu Ələkbərov Azərbaycan Respublikası Prezidentinin köməkçisi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

---

## F.M.Ələsgərovun Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fuad Murtuz oğlu Ələsgərov Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

---

## Ş.A.Mövsümovun Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahmar Arif oğlu Mövsümov Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

---

## N.Ə.Əmirovun Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Natiq Ərziman oğlu Əmirov Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

---

## M.A.Əliyevin Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məhərrəm Abış oğlu Əliyev Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

---

## H.F.Hacıyevin Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Hikmət Fərhad oğlu Hacıyev Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

---

## Z.S.Nağdəliyevin Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Zeynal Səfər oğlu Nağdəliyev Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi təşkilat məsələləri şöbəsinin müdiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

---

## K.Ə.Həsənovun Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kərəm Əvəz oğlu Həsənov Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## Ş.M.Əliyevin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq ekspertizası şöbəsinin müdiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahin Məhərrəm oğlu Əliyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq ekspertizası şöbəsinin müdiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## M.A.Əliyevə general-polkovnik ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Abış oğlu Əliyevə general-polkovnik ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## E.Q.Nuriyevin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti şöbəsinin müdiri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Eldar Qasım oğlu Nuriyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti şöbəsinin müdiri vəzifəsindən azad edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## S.A.İsmayılovun Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Süleyman Abbas oğlu İsmayılov Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## İ.A.Məmmədovun Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İsrafil Aydın oğlu Məmmədov Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## Ş.A.Mövsümovun Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahmar Arif oğlu Mövsümov Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## Ə.M.Vəliyevin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ədalət Məqsəd oğlu Vəliyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## A.S.Ələkbərovun Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Sahib oğlu Ələkbərov Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## İ.A.Məmmədovun Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktorunun müavini vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İsrafil Aydın oğlu Məmmədov Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktorunun müavini vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## F.Ş.Əliyevanın Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fərəh Şirməmməd qızı Əliyeva Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## Ə.M.Həsənovun Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əli Məhəmmədəli oğlu Həsənov Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## M.A.Əliyevin Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məhərrəm Abış oğlu Əliyev Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## Azərbaycan Albaniyaya humanitar yardım edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı və Baş Nazir Əli Əsədovun sərəncamı ilə Nazirlər Kabinetinin ehtiyat fondundan Albaniyada noyabrın 26-da baş vermiş təbii fəlakətdən zərər çəkmiş əhaliyə humanitar yardım göstərilməsi məqsədilə 500 000 (beş yüz min) avro vəsait ayrılıb.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

# Parlament 2020-ci ilin dövlət büdcəsini qəbul etdi

*Əvvəli 1-ci səh.*

Birmənalı şəkildə qeyd edilmişdir ki, Azərbaycanın 2020-ci il dövlət büdcəsi ölkənin milli maraqlarına cavab verir və beynəlxalq aləmdə nüfuzunun artmasına xidmət edən irimiqyaslı transmilli layihələrin uğurla həyata keçirilməsinə, eyni zamanda iqtisadiyyatın bütün sahələrində islahatların səmərəliliyinin artırılmasına, genişləndirilməsinə zəmin yaradır.

Qanun layihəsi üçüncü oxunuşda təsdiq edildi.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi barədə (üçüncü oxunuş) məlumat verdi. Komitə sədri layihədə edilən müəyyən dəyişiklikləri diqqətə çatdırdı. Qanun layihəsi üçüncü oxunuşda təsdiq edildi.

Daha sonra iclasda büdcə zərfinə daxil olan digər məsələlər - "İşsizlikdən sığorta fondunun 2020-ci il dövlət büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2020-ci il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2020-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihələri üçüncü oxunuşda qəbul olundu.

Deputatlar "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrinə üçüncü oxunuşda müsbət münasibət bildirdilər.

İclasda büdcə zərfinə daxil olan Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il üçün xərclər smetası haqqında və Azərbaycan Respublikası Hesablama Palatasının 2020-ci il üçün xərclər smetası haqqında sənədlər də təsdiq olundu.

Bununla da dövlət büdcəsi və büdcə zərfinə daxil olan məsələlərin üçüncü oxunuşda müzakirəsi başa çatdı. Oqtay Əsədov 2020-ci ildə büdcənin həyata keçirilməsində hökumətə uğurlar arzu etdi.

### İnsan hüquqları üzrə yeni müvəkkil seçildi

Gündəlikdəki növbəti məsələ Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) seçilməsi haqqında idi. Bu məsələ ilə bağlı Milli Məclis Sədrinin müavini, parlamentin İnsan hüquqları komitəsinin sədri Bahar Muradova məlumat verdi. Qeyd etdi ki, Azərbaycan Prezidentinin 15 noyabr 2019-cu il tarixli məktubu ilə İnsan hüquqları üzrə müvəkkilin seçilməsi üçün namizədlər Milli Məclisə təqdim olunub. Milli Məclisin İnsan hüquqları komitəsi 22 noyabr tarixli iclasında bu məsələyə baxıb və rəy verib. Təqdim olunan namizədlər cəmiyyətdə kifayət qədər tanınırlar, onların hər biri şəxsi keyfiyyətlərinə görə və tərcümeyi-hallarındakı məlumatlara əsasən bu vəzifəni tuta bilərlər. Bildirildi ki, namizədlərdən Səbinə Əliyeva Konstitusiya Məhkəməsi Aparatı rəhbərinin müavini, Kəmalə Əliyeva Ali Məhkəmənin Aparatının İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri, Kəmalə Abıyeva isə Bakı Apelyasiya Məhkəməsinin hakimidir. "Bu təqdimat və onların yaşı, keçdikləri həyat yolu bu gün Azərbaycanda həyata keçirilən siyasətə, yeniləşmə ruhuna tam uyğundur", -deyə Bahar Muradova bildirdi.


























## Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 6-cı bəndinə və "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 2.1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) vəzifəsinə təqdim edilmiş Səbinə Yaşar qızı Əliyevanın, Kəmalə Zakir qızı Əliyevanın və Kəmalə Nəbi qızı Abıyevanın namizədliklərini müzakirə edərək **qərara alır:**

Səbinə Yaşar qızı Əliyeva Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) seçilsin.

***O.ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

Məsələ ilə bağlı Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, deputatlardan Elmira Axundova, Qüdrət Həsənquliyev, Azər Badamov fikirlərini bildirdilər.

Yekunda səsvermə keçirildi və Səbinə Əliyeva Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) vəzifəsinə seçildi.

Səbinə Əliyeva Azərbaycanın insan hüquqları üzrə müvəkkili vəzifəsində səlahiyyətlərini şərəflə, ləyaqətlə yerinə yetirəcəyinə, respublikamızın Konstitusiyasına və qanunlarına əməl edəcəyinə, müstəqil və qərəzsiz fəaliyyət göstərəcəyinə and içdi. İnsan hüquqları üzrə müvəkkil vəzifəsinə seçilməyin onun üçün böyük şərəf olduğunu deyən Səbinə Əliyeva ona yüksək etimad göstərib bu vəzifəyə namizədliyini Milli Məclisə təqdim etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Eyni zamanda təklif olunan namizədlər sırasından ombudsman vəzifəsinə onu seçdiklərinə görə, deputatlara təşəkkürünü ifadə edən Səbinə Əliyeva onları əmin etdi ki, ölkəmizdə Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyevin daha da təkmilləşdirdiyi insan hüquqlarının təmin edilməsi sisteminin fəaliyyətinə töhfə verilməsi, bununla da cəmiyyətdə gedən hərtərəfli inkişaf proseslərinin dəstəklənməsi üçün səylərini əsirgəməyəcək.

### Məhkəmə-hüquq islahatlarına xidmət edən dəyişikliklər

İclasda məhkəmə-hüquq islahatlarından irəli gələn 9 qanun layihəsi də üçüncü oxunuşda müzakirə olundu. Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məsələlər barədə məlumat verdi. Qeyd etdi ki, qanun layihələrinin qəbulu ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatlarına mühüm töhfələr verəcək.

Beləliklə, "Məhkəmələr və hakimlər haqqında", "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında", "İnzibati icraat haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında", "Lisenziyalar və icazələr haqqında" qanunlarda, Mülki Prosessual Məcəllədə, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda təsdiq olundu.

İclasda son olaraq "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarıldı. Layihə barədə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verdi. Qeyd etdi ki, birinci oxunuşda müzakirələrdən sonra deputatların səsləndirdiyi fikirlər öyrənilmiş və onların bir qismi nəzərə alınmışdır.

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Yekunda Milli Məclisin Sədri Oqtay Əsədov bildirdi ki, Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvləri beşinci çağırış Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət edilməsi haqqında məsələni müzakirəyə çıxarmaq barədə ona müraciət ediblər. Bu təşəbbüsə dəstək verdiyini deyən Oqtay Əsədov məsələnin Milli Məclisin dekabrın 2-də keçirilən iclasında müzakirəyə çıxarılacağını bildirdi.

***Rəşad CƏFƏRLİ,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

# Xalq İlham Əliyev siyasətinə alternativ görmür

*Əvvəli 1-ci səh.*

## İlham Əliyevin xarici diplomatiyasının təntənəsi...

Azərbaycan Prezidentinin uğurlu xarici diplomatiyası, qlobal miqyaslı təşəbbüsləri, layihələri açıq dənizə çıxışı olmayan bir ölkəni beynəlxalq nəqliyyat-tranzit qovşağına çevirib. Həmçinin Azərbaycan ən mühüm hərbi, humanitar konfransların, forumların keçirildiyi məkan statusu alıb.

Təkcə oktyabr-noyabr aylarında - cəmi iki ay ərzində Azərbaycanda keçirilən konfranslara, cənab İlham Əliyevin dəvət aldığı beynəlxalq tədbirlərdəki çıxışlarına nəzər yetirsək, bir daha qazanılan uğurların şahidi olarıq.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında iştirak edən dövlət başçısı canlı efirdə işğalçı Ermənistanın baş naziri Nikol Paşinyanın sərsəm fikirlərinə cavab olaraq "Qarabağ Azərbaycandır, nida işarəsi" fikrini səsləndirməsi hər bir azərbaycanlıda fəxarət hissi yaşatdı: "Bir daha bütün dünya gördü ki, Qarabağ Azərbaycanındır, bir daha bütün dünya bu həqiqəti gördü".

Aşqabadda keçirilən MDB dövlət başçılarının Zirvə görüşündə isə cənab İlham Əliyev dünyaya bəyan etdi ki, erməni faşizmi dünyaya təhdiddir. Bir sözlə, Azərbaycan "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasındakı çıxışından sonra Türkmənistanda növbəti dəfə N.Paşinyana ağır diplomatik zərbə vurdu.

Oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirildi və təşkilata sədrlik Azərbaycana keçdi. Noyabr ayında 120 əsas, 17 müşahidəçi dövlət və 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən, BMT-dən sonra ikinci ən böyük siyasi dialoq platforması olan Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə evsahibliyi edən Azərbaycan müstəqillik tarixində ən böyük beynəlxalq siyasi tədbirlərdən birini gerçəkləşdirmiş oldu. Quruma sədrlik Azərbaycana keçdi. Prezidentin söylədiyi kimi, Bakıda keçirilmiş Zirvə görüşü onu bir daha göstərdi ki, bu ölkələr arasında ixtilaflar kifayət qədər çoxşaxəlidir: "Elə ölkələr var ki, bir-biri ilə müharibə şəraitindədir. Elə ölkələr var ki, bir-biri ilə diplomatik əlaqələr saxlamırlar. Amma onların hər biri - 119-u bizə səs verdi. Nadir bir vəziyyətdir. Biri də bitərəf qalmadı, yaxud da əleyhinə səs vermədi. Nəyə görə? Bax, dediyim sözlərə görə. Bizə inanırlar, bizi tanıyırlar, bilirlər ki, sözümüzlə əməlimiz birdir. Bilirlər ki, heç kimin qarşısında baş əymirik, lap ən ağır sınaqlarla, ən ağır təxribatlarla üz-üz qalsaq belə".

Noyabr ayında Bakıda, həmçinin Dünya dini liderlərinin II Zirvə Görüşü keçirildi. 70 ölkənin dini liderləri Bakıya təşrif buyurdu. Dövlət başçısı bu toplantını dəyərləndirərkən dedi: "Dünyada buna bənzər ikinci yığıncaq yoxdur. Dini liderlərin Zirvə Görüşünün keçirilməsi belə səviyyədə və belə təmsilçiliklə bir daha bizim hörmətimizi, rolumuzu göstərir. Biz nəinki ölkə daxilində, dünya miqyasında bu gün çox önəmli ölkəyə çevrilmişik".

Əlbəttə ki, belə zirvə görüşlərinin keçirilməsi bir daha Azərbaycanın hörmətinin, dünyadakı rolunun yüksək olduğunu göstərir.

## YAP-ın növbədənkənar parlament seçkiləri təşəbbüsü...

O ki qaldı daxili siyasətə, hər şey göz önündədir. Cənab İlham Əliyevin ilin əvvəlindən başlatdığı sosial-iqtisadi və struktur islahatları ölkə əhalisi tərəfindən təqdir edilir və beynəlxalq birlik də bu islahatları yüksək qiymətləndirir. Prezident deyir ki, islahatlara alternativ yoxdur və proses davam edəcək: "İslahatlar bizim şüurlu seçimimizdir. Elə fərz edə bilərik ki, nəyə lazımdır bu islahatlar? Onsuz da hər şey yolunda gedir, ölkə inkişaf edir, yeni müəssisələr açılır, abadlıq işləri görülür. Yox, struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır. Baxın, iqtisadi islahatlar nəticəsində təkcə bu ilin on ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplamışıq. Bunları sosial sahəyə yönəldirik. Amma bu, hələ islahatların növbəti mərhələsinin birinci addımlarıdır. Bundan sonra da daha böyük addımlar atılacaqdır".

Dövlət başçısının fikirlərindən bəlli oldu ki, ölkədə həm icra, həm də məhkəmə-hüquq sistemində islahatlar daha da dərinləşəcək. İki gün sonra isə hakim Yeni Azərbaycan Partiyasının Siyasi Şurası Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi təşəbbüsü ilə çıxış etdi. YAP bəyan etdi ki, Milli Məclisdə mütləq əksəriyyətə malik olan siyasi təşkilatın deputat korpusunun təşəbbüsü ilə parlamentin buraxılması və növbədənkənar gerçəkləşəcək seçki ölkədə aparılan genişmiqyaslı islahatların yaratdığı hüquqi, siyasi tələblərlə bağlıdır. Partiya üzvləri bu qənaətdədir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar qanunverici hakimiyyət sferasından da kənarda qalmamalıdır.

YAP sədrinin müavini-İcra katibi Əli Əhmədov bəyan etdi ki, bütövlükdə bu qərar ölkəmizin inkişafına, tərəqqisinə öz müsbət təsirini göstərəcək və uğurla həyata keçiriləcək: "Konstitusiyaya edilən son dəyişikliklər əsasında Azərbaycan Prezidentinə parlamenti müəyyən şərtlər əsasında buraxmaq səlahiyyətləri təsbit edilib. Düşünürük ki, Prezidentin bu səlahiyyətindən istifadə edərək parlamenti buraxması parlament və qanunvericilik sferasında islahatların həyata keçirilməsi üçün əlverişli imkan yarada bilər".

Beləliklə, tezliklə ölkəmizdə növbədənkənar parlament seçkiləri keçiriləcək. Əminliklə deyə bilərik ki, bu seçkilərin nəticələri hər şeydən öncə cənab İlham Əliyevin islahatlar kursuna böyük töhfə verəcək. Seçki prosesini davamlı olaraq təkmilləşdirən iqtidar növbəti ədalətli seçki vasitəsilə sosial-iqtisadi inkişafın dayanıqlılığına təkan verəcək.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# AŞ PA Bürosunun və Daimi Komitəsinin iclaslarında Azərbaycanda həyata keçirilən islahatlar haqqında məlumat verilib

Strasburqda Avropa Şurası Parlament Assambleyası (AŞ PA) Bürosunun və Daimi Komitəsinin iclasları keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov iclaslarda iştirak edib. Büronun və Daimi Komitənin iclaslarında Səməd Seyidov Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar və Yeni Azərbaycan Partiyasının qəbul etdiyi son qərar haqqında ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə reallaşdırılan islahatlar geniş və əhatəlidir. İcra və məhkəmə hakimiyyətləri sahələrində ciddi islahatlar uğurla həyata keçirilib. Qanunverici hakimiyyət belə islahatlardan kənarda qala bilməz. Bu sahədə də islahatlara ehtiyac var. İslahatlar strategiyası sistemli olması üçün bütün hakimiyyət qollarını əhatə etməlidir. Məhz buna görə də Yeni Azərbaycan Partiyası qanunverici hakimiyyətin islahatlardan kənarda qalmaması üçün belə bir qərar qəbul edib. Qanunverici sistemdəki islahatlar ölkədə həyata keçirilən ümumi islahatların məntiqi nəticəsidir.

AŞ PA-nın üzvləri bu islahatların həyata keçirilməsində ölkəmizə dəstək verməyə hazır olduqlarını bildiriblər.

# *Leyla ABDULLAYEVA:* "Paşinyan anlamalıdır ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin KTMT-yə heç bir aidiyyəti yoxdur"

Ermənistanın baş naziri N.Paşinyanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Bişkekdə keçirilən iclası zamanı səsləndirdiyi fikirlər onun növbəti dəfə yalan və militarist ritorikadan çıxış etdiyini bariz şəkildə göstərir.

Əslində bu kimi ritorika ilə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə aparılan danışıqları pozan elə N.Paşinyanın özüdür. Cari ilin avqust ayında Ermənistan baş nazirinin Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində səsləndirdiyi "Dağlıq Qarabağ Ermənistandır" fikri danışıqlar prosesinə çox ciddi zərbə vurmuşdur. Əgər N.Paşinyan bu fikrini dəyişibsə, o, bunu açıq şəkildə bildirməlidir, yox, əgər baş nazir bu fikrində hələ də qalırsa, bu, danışıqlar prosesinə, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə və mandatına ciddi zərbədir.

AZƏRTAC xəbər verir ki, bu fikri Ermənistan baş nazirinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Bişkekdə keçirilən görüşündə çıxışını şərh edən Azərbaycanın Xarici İşlər nazirinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib.

Leyla Abdullayeva deyib: "Ermənistan-Azərbaycan dövlət sərhədi boyunca müxtəlif təxribatlar törədən, mülki əhalini atəşə tutan, o cümlədən bu il oktyabrın 3-də azərbaycanlı ekskavatorçunu qətlə yetirən Ermənistan tərəfi bu kimi təxribatçı vasitələrlə KTMT-ni münaqişəyə cəlb etmək istəyir. KTMT üzv dövlətləri ilə Azərbaycan arasında hərbi-siyasi və hərbi-texniki əməkdaşlıq da daxil olmaqla sıx əməkdaşlıq münasibətləri mövcuddur. Xüsusilə Rusiya ilə Azərbaycan arasında mövcud olan əməkdaşlığı qeyd etmək istərdik. Rusiya ilə Azərbaycan arasında bütün sahələrdə, o cümlədən hərbi-texniki sahədə geniş əməkdaşlıq vardır. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il oktyabrın 30-da Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqunu, noyabrın 26-da isə Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovu qəbul edib və hər iki görüşdə 2020-ci ildə ölkələrimiz arasında hərbi sahədə əməkdaşlıq məsələləri müzakirə olunub. Ehtiyac olarsa, Azərbaycan Rusiyadan yeni silahlar ala bilər. Vurğulamaq istərdik ki, bu məsələnin Ermənistan baş nazirinə hər hansı aidiyyəti yoxdur.

Azərbaycan Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının Aşqabad şəhərində keçirilən iclasında Ermənistanda faşizmin qəhrəmanlaşdırılması, Njde Qaregin adlı faşist cəlladına abidənin ucaldılması barəsində konkret sənədlərə və dəlillərə istinad edərək çıxış etdi. Bu çıxışa cavab verməyə cəhd göstərən Ermənistan baş naziri Paşinyanın gülünc və cəfəng fikirləri Prezident İlham Əliyev tərəfindən cavab çıxışı ilə böyük ustalıqla darmadağın edildi. İndi Ermənistan hökumətinin başçısının bu fikirləri hətta Ermənistanın özündə gülüş və məsxərə obyektinə çevrilib. Baş nazir Paşinyanın SSRİ xarici işlər naziri V.Molotovun da Hitler ilə görüşdüyünü qeyd etməsi, həmçinin Njde Qaregini A.Soljenitsın ilə eyniləşdirməsi tarixi savadsızlıq və sinizmin nümunəsidir.

Ermənistan baş naziri anlamalıdır ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin KTMT-yə heç bir aidiyyəti yoxdur".

# Bölgələrdə vətəndaşların qəbulu keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov noyabrın 29-da Sumqayıt şəhərində daxili işlər orqanlarının fəaliyyətinə və səlahiyyətinə aid məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Sonra şəhər polis idarəsində Sumqayıt da daxil olmaqla respublikanın Abşeron, Qobustan, Qubadlı, Zəngilan şəhər və rayonlarından, eyni zamanda həmin bölgədə məskunlaşmış qaçqın və məcburi köçkünlərdən müraciət edən 28 nəfərlə görüşən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini şəxsən dinləyib, problemlərinin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün nazirliyin aidiyyəti baş idarə və xidmət rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti elə yerində həllini tapıb.

* * *

Kənd Təsərrüfatı naziri İnam Kərimov noyabrın 29-da Astara Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Astara, Lerik və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Daha sonra nazir İnam Kərimov Astara Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub, fermerlərə informasiya məsləhət xidmətinin göstərilməsində iştirak edən Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşüb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 29 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Noyabrın 29-da Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyev Masallı Dövlət Aqrar İnkişaf Mərkəzinin binasında Masallı rayonu və Lənkəran şəhərindən olan vətəndaşları, Kənd Təsərrüfatı nazirinin müavini Elçin Zeynalov isə Yardımlı Dövlət Aqrar İnkişaf Mərkəzində Yardımlı və Cəlilabad rayonlarından olan vətəndaşları qəbul ediblər. Masallıda keçirilən vətəndaş qəbulunda 23, Yardımlıda keçirilən vətəndaş qəbulunda isə 11 vətəndaşın müraciətinə baxılıb, məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verilib.

* * *

Noyabrın 29-da Dövlət Gömrük Komitəsinin rəhbərliyi Abşeron, Salyan, Sabirabad və Hacıqabul rayonlarının sakinlərini, eləcə də bu bölgələrdə məskunlaşan məcburi köçkünləri qəbul edib.

Həmin gün Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Xırdalan şəhərində Abşeron rayonundan olan vətəndaşları qəbul edib.

Qəbulda vətəndaşların yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib. Müraciətlər əsasən idxal-ixrac əməliyyatları zamanı rəsmiləşdirmə və digər gömrük məsələləri ilə bağlı olub.

Həmin gün Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov Salyan şəhərində Salyan rayonundan, komitə sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev isə Sabirabad şəhərində Sabirabad və Hacıqabul rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbullar zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib.

* * *

Noyabrın 29-da Ali Məhkəmənin sədri Ramiz Rzayev Bərdə Rayon Məhkəməsinin inzibati binasında vətəndaşları qəbul edib.

Qəbulda hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Araşdırılması tələb edilən müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq həlli ilə əlaqədar Ali Məhkəmə Aparatının qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Səfər çərçivəsində Ali Məhkəmənin sədri Bərdə Rayon Məhkəməsinin inzibati binası, hakimlərin fəaliyyəti və iş şəraiti ilə tanış olub.

Gəncə Apelyasiya Məhkəməsinin sədri və Bərdə Rayon Məhkəməsi hakimlərinin iştirakı ilə müşavirə keçirilərək, məhkəmə fəaliyyətinin dövlət başçısının tövsiyələrinə uyğun təkmilləşdirilməsi, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında Azərbaycan Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası üzrə görülən işlərdən bəhs olunub, qarşıda duran vəzifələr müzakirə edilərək, məhkəmə qərarlarının ədalətliliyinin və qanuniliyinin təmin edilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, qeyri-prosessual münasibətlərin yolverilməzliyi ilə bağlı tövsiyə və tapşırıqlar verilib.

***AZƏRTAC***

## Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin dekabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu CƏDVƏLİ

| Mərkəzi icra hakimiyyəti orqanları, digər qurumlar | Qəbul günü | Qəbulun keçirildiyi və əhatə etdiyi şəhər, rayonlar |
|---|---|---|
| **Vüqar Əhmədov**<br>"Azərişıq" ASC-nin sədrinin vəzifəsini icra edən | 03 | **Salyan,** Neftçala |
| **Ramil Yusifov**<br>"Azərişıq" ASC-nin sədrinin müavini | 03 | **Şirvan,** Hacıqabul |
| **Hicran Hüseynova**<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri | 05 | **Abşeron,** Sumqayıt, Zəngilan, Qubadlı, Şuşa |
| **Aynur Sofiyeva**<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 05 | **İmişli,** Saatlı, Sabirabad |
| **Ruslan Əliyev**<br>ARDNŞ-nin "Azəriqaz" İB-in baş direktoru | 05 | **Tərtər,** Bərdə |
| **Ramil İsgəndərov**<br>ARDNŞ-nin "Azəriqaz" İB-in baş direktorunun müavini | 05 | **Füzuli** |
| **Ceyhun Şıxəliyev**<br>ARDNŞ-nin "Azəriqaz" İB-nin baş direktorunun müavini | 05 | **Ağdam** |
| **Oqtay Şirəliyev**<br>Səhiyyə naziri | 06 | **Neftçala** |
| **Elsevər Ağayev**<br>Səhiyyə nazirinin müavini | 06 | **Hacıqabul,** Şirvan |
| **Rahim Əliyev**<br>Səhiyyə nazirinin müavini | 06 | **Salyan** |
| **Şahin Yusifov**<br>Ali Məhkəmənin Cinayət kollegiyasının sədri | 06 | **Yardımlı** |
| **Namiq Əsgərov**<br>Baş prokurorun müavini | 06 | **Qobustan,** Şamaxı |
| **Toğrul Musayev**<br>Ədliyyə nazirinin müavini | 06 | **Qəbələ** |
| **Məleykə Abbaszadə**<br>Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 06 | **Abşeron,** Sumqayıt, Xızı, Siyəzən, Qubadlı, Zəngilan, Şuşa |
| **Bəhram Xəlilov**<br>Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası sədrinin müavini | 06 | **Zərdab,** İmişli, Fuzuli, Beyləqan |
| **Əvaz Qocayev**<br>Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini | 06 | **Mingəçevir** |
| **Əhməd Əhmədzadə**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri | 11 | **Abşeron,** Qobustan |
| **Qorxmaz Hüseynov**<br>"Azərsu" ASC-nin sədri | 11 | **Şirvan,** Hacıqabul |
| **Sahir Məmmədxanov**<br>Vergilər nazirinin birinci müavini | 11 | **Tovuz,** Şəmkir, Gədəbəy, Qazax, Ağstafa |
| **Rüstəm Şahbazov**<br>Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 11 | **Quba** |
| **Zakir Qaralov**<br>Baş prokuror | 13 | **Sumqayıt,** Qubadlı |
| **Hikmət Mirzəyev**<br>Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyasının sədri | 13 | **Hacıqabul** |
| **Sahil Babayev**<br>Əmək və Əhalinin Sosial Müdafiəsi naziri | 13 | **Abşeron** |
| **Anar Kərimov**<br>Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini | 13 | **Xızı** |
| **Mətin Kərimli**<br>Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini | 13 | **Sumqayıt** |
| **Azad Rəhimov**<br>Gənclər və İdman naziri | 13 | **Biləsuvar** |
| **İntiqam Babayev**<br>Gənclər və İdman nazirinin müavini | 13 | **İmişli** |
| **İsmayıl İsmayılov**<br>Gənclər və İdman nazirinin müavini | 13 | **Ağcabədi,** Beyləqan |
| **Firudin Qurbanov**<br>Təhsil nazirinin müavini | 13 | **Abşeron,** Zəngilan, Şuşa |
| **Sahib Ələkbərov**<br>Vergilər nazirinin müavini | 13 | **Astara,** Lənkəran, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar |
| **Zakir Quliyev**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 13 | **Şamaxı** |
| **Rafiq Aslanov**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 13 | **Ağsu** |
| **Teyyub Cabbarov**<br>"Azərsu" ASC-nin sədrinin birinci müavini | 13 | **Sabirabad,** Saatlı |
| **Etibar Məmmədov**<br>"Azərsu" ASC-nin sədrinin müavini | 13 | **Salyan,** Neftçala |
| **Rafiq Cəlilov**<br>Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 14 | **Qusar** |
| **Əbülfəs Qarayev**<br>Mədəniyyət naziri | 17 | **Saatlı,** Sabirabad |
| **Vaqif Əliyev**<br>Mədəniyyət nazirinin birinci müavini | 17 | **Şirvan** |
| **Rafiq Bayramov**<br>Mədəniyyət nazirinin müavini | 17 | **Hacıqabul** |
| **Mübariz Qurbanlı**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 17 | **Ağdaş,** Yevlax |
| **Siyavuş Heydərov**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 17 | **Mingəçevir** |
| **Gündüz İsmayılov**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 17 | **Bərdə** |
| **Mətin Eynullayev**<br>Vergilər nazirinin müavini | 18 | **Saatlı,** Şirvan, Hacıqabul, Salyan, Neftçala, Sabirabad |
| **Ramiz Rzayev**<br>Ali Məhkəmənin sədri | 20 | **Göyçay** |
| **Fikrət Məmmədov**<br>Ədliyyə naziri | 20 | **Naftalan,** Goranboy, Tərtər |
| **Muxtar Babayev**<br>Ekologiya və Təbii Sərvətlər naziri | 20 | **Şirvan,** Hacıqabul |
| **Firdovsi Əliyev**<br>Ekologiya və Təbii Sərvətlər nazirinin müavini | 20 | **Saatlı** |
| **Rauf Hacıyev**<br>Ekologiya və Təbii Sərvətlər nazirinin müavini | 20 | **Sabirabad** |
| **Pərviz Şahbazov**<br>Energetika naziri | 20 | **Kürdəmir,** Ucar |
| **Samir Vəliyev**<br>Energetika nazirinin müavini | 20 | **Göyçay,** Ağdaş |
| **Elnur Soltanov**<br>Energetika nazirinin müavini | 20 | **Zərdab** |
| **Kəmaləddin Heydərov**<br>Fövqəladə Hallar naziri | 20 | **Qusar** |
| **Rəfail Mirzəyev**<br>Fövqəladə Hallar nazirinin birinci müavini | 20 | **Quba** |
| **Etibar Mirzəyev**<br>Fövqəladə Hallar nazirinin müavini | 20 | **Xaçmaz** |
| **Mikayıl Cabbarov**<br>İqtisadiyyat naziri | 20 | **Mingəçevir** |
| **Niyazi Səfərov**<br>İqtisadiyyat nazirinin müavini | 20 | **Yevlax** |
| **Sahib Məmmədov**<br>İqtisadiyyat nazirinin müavini | 20 | **Ağdaş** |
| **İnam Kərimov**<br>Kənd Təsərrüfatı naziri | 20 | **Xaçmaz,** Qusar |
| **İlham Quliyev**<br>Kənd Təsərrüfatı nazirinin müavini | 20 | **Quba,** Şabran |
| **Elçin Zeynalov**<br>Kənd Təsərrüfatı nazirinin müavini | 20 | **Siyəzən,** Xızı |
| **Ramin Quluzadə**<br>Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri | 20 | **Ucar,** Kürdəmir |
| **Əli Abdullayev**<br>Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini | 20 | **Göyçay** |
| **Ceyhun Bayramov**<br>Təhsil naziri | 20 | **Sumqayıt,** Xızı, Qubadlı |
| **Rüstəm Usubov**<br>Baş prokurorun birinci müavini | 20 | **Hacıqabul,** Şirvan |
| **Rövşən Rzayev**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 20 | **Abşeron** |
| **Fuad Hüseynov**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 20 | **Sumqayıt** |
| **Saleh Məmmədov**<br>Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri | 20 | **Gəncə,** Göygöl, Samux |
| **Səfər Mehdiyev**<br>Dövlət Gömrük Komitəsinin sədri | 27 | **Xaçmaz,** Quba |
| **İsmayıl Hüseynov**<br>Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini | 27 | **Qusar** |
| **Əsgər Abdullayev**<br>Dövlət Gömrük Komitəsi sədrinin müavini | 27 | **Şabran** |

**Qeyd:** Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən təşkilatların səlahiyyətlərinə aid olmalıdır.

# Dinlərarası və mədəniyyətlərarası dialoqun önəmli platforması

Əvvəli 1-ci səh.

Məsələn, Azərbaycanda Bakı Humanitar Forumu, BMT tərəfindən də dəstəklənən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya dini liderlərinin Zirvə görüşləri ənənəvi şəkildə təşkil olunur. Elə bir il olmaz ki, Azərbaycan bu silsilədən bir neçə tədbirin təşkilatçılığını öz üzərinə götürməsin.

Bütün bunların mahiyyətini, məqsəd və məramını sammitdəki çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev kifayət qədər dəqiq şəkildə ifadə etdi. Multikulturalizm dəyərlərini ölkəmizdə həm həyat tərzi, həm də dövlət siyasəti olduğunu diqqətə çatdıran ölkə rəhbəri qeyd etdi ki, bütün bu tədbirlərin bir məqsədi var - dinlərarası dialoqu möhkəmləndirmək, dini ayrı-seçkiliyə qarşı birgə mübarizə aparmaq, multikultural dəyərləri təbliğ etmək və beləliklə, dünyada gedən müsbət proseslərə töhfə vermək: “Çünki biz yaxşı görürük və mətbuatdan da izləyirik ki, dini zəmində, etnik zəmində, məzhəb zəminində bir çox xoşagəlməz hallar - münaqişələr, qarşıdurmalar, müharibələr, qardaş qanının axıdılması baş verir. Əfsuslar olsun ki, bəzi hallarda psevdodini şüarlar altında cinayətlər törədilir. Biz bu istiqamətdə öz səylərimizi birləşdirməliyik”.

Ötən il 10 illiyi qeyd edilən “Bakı Prosesi”nin geniş beynəlxalq dəstək qazanması, o cümlədən BMT-nin “Bakı Prosesi”ni dinlərarası, mədəniyyətlərarası dialoqun önəmli platforması kimi qəbul etməsi çox sevindiricidir. Bu, dünyadakı gərginliklərin azaldılması üçün Azərbaycanın üzərinə götürdüyü tarixi missiyanın uğurlarını əks etdirir. Paytaxtımızda təşkil olunmuş qlobal əhəmiyyətli tədbirlərdə təmsil olunan nüfuzlu elm, mədəniyyət, dövlət xadimlərinin Bakıdan bəşəriyyətə ünvanladıqları qlobal çağırışların öz ünvanına çatdığını təsdiqləyir.

Ölkə rəhbəri İlham Əliyevin, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu qlobal təşəbbüslərin reallaşdırılması istiqamətində çəkdikləri zəhmətin, bu işə sərf etdikləri fədakar əməyin hədər getmədiyini göstərir.

Yeri gəlmişkən, elə bu fədakar əməyin qarşılığı olaraq Mehriban xanım Əliyevanın həm Qərb dünyasına aid UNESKO-nun, həm də müsəlman Şərqinin maraqlarını ifadə edən ISESCO-nun xoşməramlı səfiri ali statusuna layiq görülməsi, Azərbaycanın mədəniyyətlər, dinlər arasında dialoqun əldə olunması istiqamətində əldə etdiyi nailiyyətlərin bir simvolu sayıla bilər.

İndi əksəriyyət belə bir həqiqətin fərqindədir ki, bütün bəşəriyyəti təhdid edən ayrı-ayrı problemlərin həlli üçün hamı öz imkanlarını birləşdirməlidir. Ayrı-ayrı dövlətlərin, cəmiyyətlərin təmsilçiləri daha tez-tez bir araya gəlməlidirlər. Fərqli dinlər, mədəniyyətlər arasında dialoqun əldə olunmasına hər kəs səy göstərməlidir.

2008-ci ildə Bakıda start götürən və tarixə “Bakı Prosesi” kimi düşən qlobal platformanın uğurları sübut edir ki, bəşəriyyətin xoşbəxt gələcəyi üçün səmimiyyətlə çalışanda, bu işə zəhmət sərf edəndə belə bir dialoq mütləq alınır.

## Qlobal hərəkata çevrilən “Bakı Prosesi”

“Bakı Prosesi” Azərbaycan Respublikasının təşəbbüsü ilə mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli, effektiv dialoqun qurulması məqsədilə irəli sürülüb. Belə bir təşəbbüsün məhz Azərbaycan tərəfindən ortaya qoyulması isə heç də təsadüfi deyildi. Bu, çoxmillətli ölkəmizin tarixən malik olduğu dini tolerantlıq ənənələrindən, zəngin mədəni müxtəlifliyindən, insanlar arasındakı qarşılıqlı hörmət mühitindən irəli gəlirdi.

Proses belə başlandı: Avropa Şurasına üzv dövlətlərin 2008-ci ilin 2-3 dekabr tarixində təşkil olunan mədəniyyət nazirlərinin konfransına Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq 10 islam ölkəsi də dəvət edildi. İslam dövlətlərinin iştirakı ilə mədəniyyət nazirlərinin konfransı yeni bir formata transformasiya olundu. Avropa və ona qonşu regionlardan 48 ölkənin, 8 beynəlxalq təşkilatın və bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının yüksəksəviyyəli nümayəndələrinin iştirak etdiyi bu konfransda “Mədəniyyətlərarası dialoqun təşviqinə dair “Bakı Bəyannaməsi” qəbul edildi.

“Bakı Bəyannaməsi” ilə sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan “Bakı Prosesi”nin və bu prosesin inkişafına hədəflənmiş “Sənətçilər dialoq naminə” layihəsinin əsası qoyuldu. “Bakı Prosesi”nin davamlılığını təmin etmək məqsədilə 2009-cu il 13-15 oktyabr tarixində Bakıda keçirilmiş İslam ölkələrinin mədəniyyət nazirlərinin VI Konfransında Azərbaycanın təşəbbüsü ilə 10-dan çox Avropa dövləti də iştirak etdi.

Konfrans çərçivəsində iştirak edən Avropa Şurasına üzv dövlətlərlə İslam Konfransı Təşkilatına üzv dövlətlər arasında mədəniyyətlərarası dialoqa dair birgə kommunike qəbul edildi. 2010-cu ildən isə “Bakı Prosesi” qlobal hərəkata çevrilməyə başladı. 2010-cu ilin sentyabrında BMT-nin Baş Assambleyasının 65-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyi elan edildi. Beləliklə, paytaxtımızda bu qəbildən ilk forum 2011-ci ilin 7-9 aprel tarixlərində böyük müvəffəqiyyətlə keçirildi və sonrakı dövrlərdə də Bakıda bu silsilədən növbəti forumların təşkili xoş bir ənənəyə çevrildi.

“Bakı Prosesi” çərçivəsində keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları BMT və onun strukturlarının mədəniyyətlərarası dialoqun qurulması və inkişafı, irqi ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə sahəsində qlobal platforma statusu qazandı. 2016-cı ilin aprelində BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun məhz Bakıda keçirilməsi də bu uğurlu prosesin və fəaliyyətin nəticəsi idi.

Həmçinin Birləşmiş Millətlər Təşkilatı Baş katibinin 2017-ci ilin sentyabrında BMT Baş Assambleyasının 72-ci sessiyasındakı “Dünyanın rifahı naminə sülh mədəniyyətinin, dinlərarası və mədəniyyətlərarası dialoqun, qarşılıqlı anlaşmanın və əməkdaşlığın təşviqi” adlı məruzəsində 2008-ci ildən etibarən müvəffəqiyyətlə reallaşdırılan “Bakı Prosesi”ni xüsusi vurğulaması qədim dövrlərdən bəri sivilizasiyalar arasında körpü rolunu oynamış Azərbaycanın mədəniyyətlərarası dialoqa hazırkı mərhələdə verdiyi töhfələrin beynəlxalq miqyasda xoş etirafı kimi tarixə düşdü.

## Tarixi ənənələrimizin gücü

“Bakı Prosesi”nin mövzu dairəsi kifayət qədər genişdir. Dinlər arasında dialoq problemi isə burada hər zaman xüsusi yer tutur. Bütün beynəlxalq tədbirlərdə hansısa formada gündəmə gətirilir. Bu mövzuya xüsusi diqqətin ayrılması sivilizasiyalararası, dinlərarası dialoqun dərinləşməsi, güclənməsi, dünyada risklərin azalması, ayrı-seçkilik, ksenofobiya hallarına düzgün qiymət verilməsi və bu təhlükəli meyillərin qarşısının alınması niyyətindən irəli gəlir.

Dünyanı vahid məkan, bəşəriyyəti isə bir cəmiyyət kimi görmək istəyinin ifadəsi olan bu cür tədbirlər yeni münasibətlər qurmağa, daha mütərəqqi və aktual müzakirələr aparmağa, dini insanın mənəvi dünyasının müqəddəs dəyəri kimi qorumağa, hər cür siyasi məqsədlərdən uzaq tutmağa, dinin əxlaq, tərbiyə, mənəvi təmizlik mərtəbəsindən endirilib çirkli niyyətlər üçün alətə çevrilməsinin qarşısının alınmasına xidmət edir.

Azərbaycan dinlər arasında dialoqun əldə olunmasından ötrü təkcə dünyanın nüfuzlu din xadimlərinin görüş və müzakirə platformalarından deyil, ümumiyyətlə, insanları ortaq məxrəcə gətirə biləcək bütün mümkün vasitələrdən faydalanmağa çalışır. Bunun uğurlu nümunələrini yaradır. 2015-ci ildə ölkəmizdə I Avropa Oyunlarının, iki ildən sonra - 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi buna bir örnəkdir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, baxmayaraq ki bu, idman yarışlarıdır, ancaq bu yarışların çox böyük siyasi mənası var: “Çünki təsəvvür edin, cəmi iki il ərzində bir ölkədə, bir şəhərdə islam ölkələrinin və Avropa ölkələrinin idmançıları yarışır və eyni zamanda, dostluq əlaqələri yaradırlar. Çünki bu oyunlar, sadəcə olaraq, idman yarışı deyil. Bu oyunlar Azərbaycanda bir dostluq festivalına, dostluq bayramına çevrilmişdir. Hər iki idman yarışında 100-dən çox ölkə təmsil olunurdu, minlərlə idmançı, məşqçi, qonaq iştirak edirdi və əlbəttə ki, bu oyunların dinlərarası, mədəniyyətlərarası dialoqun təşviqində böyük rolu vardır”.

Azərbaycan bütün bunlara ona görə nail ola bilir ki, bizim əsrlər ərzində formalaşmış tarixi ənənələrimiz var. Yüzilliklər ərzində müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşayıblar. Azərbaycan Respublikasının Prezidenti dünya dini liderlərinin II Sammitindəki çıxışı zamanı da bu amili xüsusi vurğuladı. Qeyd olundu ki, dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır.

Bunu ölkə ərazisindəki dini abidələrdə də görmək olar. Bu abidələrin aid olduğu tarixi dövrlər həm Vətənimizin qədimliyini, həm də müxtəlif dövrlərdə ayrı-ayrı dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqları gözəl tarixi mirası əks etdirir. Prezident İlham Əliyev islam aləminin ən qədim məscidlərindən birinin Azərbaycanda yerləşdiyini, bununla yanaşı ölkə ərazisində digər dinlərə aid qədim abidələrin də qorunub-saxlandığını qürurla sammit iştirakçılarının diqqətinə çatdırdı: “Şamaxı Cümə məscidi 743-cü ildə inşa edilmişdir, bir neçə il bundan əvvəl əsaslı təmir olunmuşdur. Bu məscid Dərbənd məscidindən sonra Qafqazın ən qədim məscididir.

Eyni zamanda, qədim dövlət olan Qafqaz Albaniyasının kilsəsi Azərbaycanın digər tarixi şəhəri - Şəkinin yaxınlığında yerləşir və bu kilsənin qədim tarixi var. Bu, Qafqazın ən qədim kilsələrindən biridir. Bakıda atəşpərəstlik məbədi - Atəşgah yerləşir. Bu da onu göstərir ki, zərdüştlük dininin Azərbaycanda qədim kökləri vardır. Sonrakı dövrlərdə rus pravoslav kilsələri, sinaqoqlar, katolik kilsəsi inşa edilmişdir. ... Beləliklə, dinlərarası dialoqun Azərbaycanda qədim tarixi vardır və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir”.

## Dəyərlərin təbliği hər kəsin vəzifəsidir

Dünyəvilik, demokratik inkişaf prinsiplərinə sadiq olan Azərbaycanda bu gün dövlət-din münasibətləri ən yüksək səviyyədədir. Dövlət hər bir vətəndaşının dini etiqad azadlığına hörmətlə yanaşır. Müsəlman ölkəsi kimi əhalisinin əsas hissəsinin müqəddəs dini olan islamın ali dəyərlərinə sahib çıxaraq bu dəyərləri təbliğ etməklə yanaşı, digər dinlərin nümayəndələrinin sərbəst fəaliyyətinə, öz dini ayinlərini icra etmələrinə də şərait yaradılır. Azərbaycan dövləti ölkə ərazisindəki bütün dini icmalara qayğı göstərir. Hansı dinə aidliyindən asılı olmayaraq hər bir tarixi-dini abidəmizin qorunması, bərpası, təmiri, eləcə də yeni dini məbədlərin inşası istiqamətində addımlar atır.

Azərbaycan dövləti dini dəyərlərə hörmət, dinlər arasında dialoqun əldə olunması məsələsinə başqa bir prizmadan da yanaşır. Din hər bir xalqın milli-mənəvi dəyəridir. Qloballaşan dünyamızda xalqın milli özünəməxsusluğunun, əxlaqi normalarının qorunması üçün bu dəyərlərin böyük təsir gücü var. Gənc nəsillərin milli köklər üzərində yetişməsi, cəmiyyətin tarixi ənənələr işığında müasir inkişafa yönəlməsi üçün bu dəyərin də təsir gücündən istifadə olunmalı, qloballaşma meyillərinin milli-mənəvi dəyərləri aşındırmasına yol verilməməlidir. Bu mühüm məqama toxunan Azərbaycan Prezidenti deyir: “Çünki biz görürük ki, dünyada, dünyanın müxtəlif yerlərində ənənəvi dəyərlərə qarşı kampaniya aparılır, onlar gözdən salınır, bizim üçün yad olan, bizim milli təfəkkürümüzə uyğun olmayan yeni “dəyərlər” aşılanır. Biz özümüzü və xüsusilə gənc nəslimizi bu yad və bəd təsirdən qorumalıyıq. Ona görə hesab edirəm ki, ənənəvi dəyərlərin, ailə dəyərlərinin təbliğ edilməsi hamımızın işi olmalıdır”.

Dünyada sülhün, sabitliyin, inkişafın, mədəniyyətlər və dinlər arasında dialoqun bərqərar olması, multikultural dəyərlərin yayılması istiqamətində Azərbaycanın gördüyü işlər böyük bir tarixi missiyadır. Bu missiyanın mühüm bir hissəsi olan “Bakı Prosesi” də dinlər və mədəniyyətlərarası dialoqun önəmli platforması kimi hələ uzun illər davam edəcək və bəşəriyyətin gələcəyinə töhfə verəcək.

*İradə ƏLİYEVA,*
*“Azərbaycan”*

# İcbari tibbi sığorta sağlamlığın qarantıdır

Müasir dövrdə, xəstəliklərin çoxaldığı zamanda səhiyyənin rolu əhəmiyyətli dərəcədə artır və əhalinin sağlamlığının qorunması prioritet məsələyə çevrilir. Təsadüfi deyil ki, hələ 2000-ci ildə BMT-nin təşəbbüsü ilə 183 millətin, 147 dövlətin nümayəndələrinin iştirak etdiyi Minilliyin Sammitində bütün dünyada yoxsulluğun azaldılması və insan inkişafının təmin edilməsinə təsir göstərən amillər arasında səhiyyə ön sırada yer almışdır.

Belə ki, 8 inkişaf məqsədindən 3-ü, 18 hədəfdən 6-sı səhiyyə sisteminin inkişafı ilə bağlı olmuşdur. Bu məqsədlərdə əks olunan 48 indikatordan 18-i səhiyyə xarakterlidir.

**“BMT 2030: Dayanıqlı İnkişaf Məqsədləri”**ndə də səhiyyəyə xüsusi yer verilmişdir. Belə ki, “sağlam həyat tərzini təmin etmək və bütün yaş kateqoriyaları üçün rifahı təbliğ etmək”, “hər kəs üçün su və sanitariyanın davamlı idarəetməsini və mövcudluğunu təmin etmək” kimi məqsədlər səhiyyə xarakterlidir.

**Minilliyin İnkişaf Məqsədləri** çərçivəsində ölkəmizin səhiyyə sisteminin qarşısında uşaq ölümü hallarının azaldılması, anaların sağlamlığının qorunması, İİÇV/QİÇS, malyariya və digər xəstəliklərə qarşı mübarizənin genişləndirilməsi kimi bir sıra məqsədlər qoyulmuşdur. Bu məqsədlərin həyata keçirilməsi, əhalinin sağlamlıq səviyyəsinin yüksəldilməsi Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin prioritet istiqamətlərindəndir. Son illərdə istər paytaxtda, istərsə də bölgələrdə səhiyyə müəssisələri əsaslı təmir olunmuş, yüzlərlə tibb ocağı tikilmişdir.

“Regionların sosial-iqtisadi inkişafı” Dövlət proqramlarına uyğun olaraq Lənkəran, Gəncə, Şirvan, Qazax, Zaqatala, Cəlilabad, Bərdə, Qəbələ, Şamaxı, Quba rayonlarında Müalicə-Diaqnostika mərkəzləri tikilib əhalinin istifadəsinə verilmişdir.

## Səhiyyənin maliyyələşməsi

Əhalinin sağlamlığının qorunması əsasən səhiyyənin maliyyələşməsindən, xüsusilə də dövlət maliyyələşməsindən birbaşa asılıdır. Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesus qeyd etmişdir ki, səhiyyəyə ayrılan vəsaitlər əlavə xərc deyil, əksinə, yoxsulluğun azaldılmasına qoyulan investisiya, iş yerlərinin yaradılması, məhsuldarlığın yüksəldilməsi, hərtərəfli iqtisadi artım və daha sağlam, təhlükəsiz və ədalətli cəmiyyət deməkdir.

Azərbaycanda səhiyyənin maliyyələşməsinə nəzər salsaq görərik ki, dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlər ildən-ilə artırılmışdır. Belə ki, dövlət büdcəsinin xərcləri 2000-ci illə müqayisədə 2018-ci ildə 29 dəfədən çox, dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlər isə müvafiq dövrdə 17 dəfədən çox artırılmışdır.

Səhiyyənin maliyyələşdirilməsində diqqət yetirilməli məsələlərdən biri də dövlət büdcəsindən İlkin Səhiyyə Xidmətlərinə ayrılan vəsaitlərlə bağlıdır. İlkin Səhiyyə Xidmətlərinin səmərəli təşkili xəstəlikləri vaxtında aşkara çıxarmaqla yanaşı, onun müalicəsini asanlaşdırır və çəkilən xərcləri də azaldır. Odur ki, səmərəli səhiyyə siyasəti tətbiq edən ölkələr İlkin Səhiyyə Xidmətlərinə daha çox vəsait ayırırlar. 1978-ci ildə Alma-Ata Bəyannaməsinin qəbulundan sonra 1984-cü ildə Ümumdünya Səhiyyə Təşkilatının Avropa bürosu ilkin tibbi yardımın gücləndirilməsi məqsədi ilə əlavə olaraq 38 vəzifə müəyyənləşdirmişdir. Bu vəzifələr səhiyyə sisteminin inkişafı və sağlamlıq baxımından İlkin Səhiyyə Xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə yönəldilmişdir.

## İcbari tibbi sığortanın tətbiqi

Mövcud problemləri həll etməkdən və dövlət səhiyyə vəsaitlərinin səmərəli istifadəsindən ötrü ölkəmizdə 2020-ci ildən icbari tibbi sığorta sistemi formalaşdırılacaqdır. Ümumiyyətlə, inkişaf etmiş ölkələrdə səhiyyə sisteminin maliyyələşməsində daha çox icbari tibbi sığorta üsulundan istifadə edilir. İcbari tibbi sığorta əhalinin sosial müdafiəsinin gücləndirilməsi nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir. İcbari tibbi sığorta - əhalinin tibbi yardım almaq hüququnu təmin edən sistemdir. Bu sistem sığorta hadisəsi zamanı sığortaolunanların xidmətlər zərfi çərçivəsində tibbi yardım almasını təmin edir. İcbari tibbi sığortanın bir sıra üstünlükləri var. Belə ki, sözügedən sistem dünyada səhiyyənin maliyyələşməsinin ən mütərəqqi üsullarından hesab olunur. İcbari tibbi sığorta səhiyyə sistemində şəffaflığı, tibbi xidmətlərin keyfiyyətini artırır, tibb personalının əməkhaqlarını yüksəldir, əhalinin sağlamlığı daha etibarlı şəkildə qorunur və tibbi xidmətlərə xərclənən vəsaitlərin payını azaldır.

Məlumat üçün bildirək ki, bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə əhalinin böyük əksəriyyəti icbari tibbi sığorta ilə təmin edilmişdir. Məsələn, Kanada, Böyük Britaniya, Yaponiya, İtaliya, Finlandiya, İsveçrə kimi ölkələrdə icbari tibbi sığorta ilə təmin olunma səviyyəsi 100 faizdir. İcbari tibbi sığorta ilə əhatə səviyyəsi postsosialist ölkələrindən - Çexiya Respublikasında 100 faiz, Estoniyada 93,9 faiz, Litvada 92 faizdir. Onu da qeyd edək ki, qonşu ölkələrdə də (Rusiya, Gürcüstan və s.) icbari tibbi sığorta fəaliyyət göstərir.

Ölkəmizdə icbari tibbi sığortanın formalaşdırılması məqsədilə bir sıra işlər görülmüşdür. Hazırda Azərbaycanın 3 pilot rayonunda (Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonları) icbari tibbi sığorta fəaliyyət göstərir və ilkin müsbət nəticələrini verməkdədir. Əhalidən heç bir ödəniş tələb olunmadan onlara tibbi müayinə və müalicə xidmətləri göstərilir. Hər ailə həkiminə orta hesabla 2500 nəfər təhkim olunaraq siyahı hazırlanmış və müvafiq elektron sistemə yüklənmişdir. Təhkim olunmuş əhalinin ailə həkimi seçmək və dəyişmək hüququ vardır. İcbari tibbi sığortanın həyata keçirilməsi ilə əlaqədar olaraq həkimlərin həvəsləndirilməsi məqsədilə əməkhaqlarına stimullaşdırıcı əlavələr edilmişdir. Tibbi heyətin maaşları artırılmışdır. **Ağdaşda həkimlərin əməkhaqları 2,5-3 dəfə, orta və kiçik tibb işçilərinin əməkhaqları 2 dəfə, inzibati idarəetmə işçilərinin əməkhaqları 2,5-3 dəfə artmışdır.**

Bütün bunlar icbari tibbi sığortaya keçidin tibbi heyətin sosial təminatı üçün də nə qədər zəruri olduğunu bir daha sübut edir. Bunlarla yanaşı, icbari tibbi sığortanın tətbiqi zamanı mühüm məsələlərdən biri də bütün əhali qrupları üçün onun əlçatan olmasıdır. İcbari tibbi sığorta sistemi sosial xarakter daşıdığından bütün ölkə əhalisini əhatə etməlidir.

İcbari tibbi sığortaya keçiddə daha az risklərlə qarşılaşmaq, tibb müəssisələrini və əhalini sözügedən prosesə hazırlamaq üçün, habelə islahatın əhatə dairəsinin genişliyini, tibb müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiqini nəzərə alaraq, agentlik 2020-ci il ərzində respublikada icbari tibbi sığortanın tətbiqinin 4 mərhələdə həyata keçirilməsini nəzərdə tutur. Birinci mərhələdə icbari tibbi sığorta 20 regionda tətbiq olunacaq və bu proses yanvar-mart aylarını əhatə edəcək. Qeyd olunan regionlara Şəki şəhəri, Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı, Şamaxı, İsmayıllı, Ağsu, Qobustan, Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ, Göyçay, Ucar, Zərdab və Kürdəmir rayonları daxildir. Qeyd edək ki, hazırda pilot layihənin həyata keçirildiyi inzibati ərazilərdə (Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonları) də icbari tibbi sığorta sisteminin tətbiqi 1 yanvar 2020-ci ildən başlanacaq. İlkin mərhələdə ölkə əhalisinin 23,82 faizinə tibbi xidmət göstəriləcək.

İkinci mərhələdə - aprel-iyun aylarında 17 region - Gəncə və Naftalan şəhərləri, Göygöl, Goranboy, Daşkəsən, Samux, Şəmkir, Qazax, Ağstafa, Gədəbəy, Tovuz, Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Füzuli və Beyləqan rayonları sözügedən sistemə qoşulacaq. Belə ki, bu regionlarda yaşayan ölkə əhalisinin 24,60 faizi icbari tibbi sığortadan yararlanacaq.

İyul-sentyabr aylarında, yəni üçüncü mərhələdə 14 regionda - Lənkəran və Şirvan şəhərləri, Masallı, Lerik, Yardımlı, Astara, Cəlilabad, Salyan, Neftçala, Biləsuvar, İmişli, Saatlı, Hacıqabul və Sabirabad rayonlarında icbari tibbi sığorta tətbiq olunacaq. Sözügedən regionlarda ölkə əhalisinin 19,53 faizinə sistem çərçivəsində tibbi xidmət göstəriləcəkdir.

Dördüncü mərhələdə - oktyabr-dekabr aylarında Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun əhalisi icbari tibbi sığorta sistemindən istifadə edəcəkdir. Bu isə ölkə əhalisinin 32,05 faizini təşkil edir.

Mərhələli tətbiq zamanı vətəndaşlara xidmətlər zərfi çərçivəsində ilkin səhiyyə xidməti, təcili və təxirəsalınmaz tibbi yardım xidməti, ambulator və stasionar, o cümlədən həyativacib dəyəri yüksək olan tibbi xidmətlər göstəriləcəkdir.

Zərfə təxminən 3000 diaqnoz üzrə tibbi xidmətlər daxildir.

İcbari tibbi sığorta çərçivəsində vətəndaşlar aşağıdakı xidmətləri əldə edə bilərlər:

- Təcili və təxirəsalınmaz tibbi yardım (o cümlədən ambulans xidməti);
- İlkin səhiyyə (ailə həkimi) xidməti;
- Ambulator şəraitdə müayinə və müalicə;
- Stasionar müalicə;
- Funksional-diaqnostik müayinələr (USM, KT, MRT və s.);
- Fizioterapevtik xidmətlər;
- Laborator müayinələr;
- Hamiləlik və doğuş xidməti;
- Təcili vaksinasiyalar (quduzluq, tetanus, ilan zəhəri əleyhinə və s.);
- Uşaqların peyvənd təqvimi əsasında planlı vaksinasiya;
- Cərrahi əməliyyatlar (o cümlədən dəyəri yüksək olan həyativacib açıq və qapalı ürək-damar əməliyyatları, koxlear implantasiya və s.);
- Müxtəlif xəstəliklər üzrə ciddi dispanser müşahidə.

## Maarifləndirmə

2020-ci ildən bütün ölkə boyu formalaşdırılacaq bu mexanizmin tətbiqi zamanı bir sıra problemlərin də yaranması labüddür. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə vəsaiti ilə Türkdilli Dövlətlərin İqtisadçıları İctimai Birliyinin reallaşdırdığı “İcbari tibbi sığorta: üstünlükləri və perspektivləri” layihəsinin icrası zamanı da ölkəmizdə icbari tibbi sığortaya keçidin mərhələli tətbiqinin daha səmərəli olacağına bir daha əmin olduq. Düşünürəm ki, yeni sistem nə qədər mütərəqqi olsa belə, onun tətbiqi zamanı bir sıra problemlər meydana çıxacaqdır. Bu problemlərin öyrənilməsi və aradan qaldırılması digər iqtisadi rayonlarda və ya bölgələrdə sistemin səmərəli fəaliyyətinə zəmin yaradacaqdır. Onu da qeyd edim ki, hazırda icbari tibbi sığorta sisteminin çox uğurla fəaliyyət göstərdiyi ölkələrdə də bu mexanizmin tətbiqi mərhələlərlə həyata keçirilmişdir.

İcbari tibbi sığortanın mərhələli tətbiqini zəruri edən amillərdən biri də əhali arasında maarifləndirmə işinin aparılmasıdır. Bu istiqamətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin apardığı işlər təqdirəlayiqdir. Lakin geniş əhali kütləsi arasında icbari tibbi sığorta ilə bağlı məlumatlılıq səviyyəsi aşağıdır. Geniş əhali qruplarının maarifləndirilməsi üçün icbari tibbi sığortadan istifadə mexanizmi ilə bağlı sosial çarxların hazırlanması və KİV-də, sosial şəbəkələrdə yayımlanması, posterlərin artırılması, bukletlərin paylanması, təlimlərin verilməsi zəruridir. Prosesə qeyri-hökumət təşkilatlarının cəlb olunması bu işin səmərəliliyini artıracaqdır. Bununla bağlı Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birlikdə elan etdiyi qrant müsabiqəsi kimi fəaliyyətlər bu işə öz töhfələrini verəcəkdir.

***Rəsmiyyə ABDULLAYEVA,***
***Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun elmi katibi, Türkdilli Dövlətlərin İqtisadçıları İctimai Birliyinin sədri, iqtisadiyyat üzrə fəlsəfə doktoru, dosent***

# Gəncə Dövlət Universiteti startap müsabiqəsinin qalibi olmuşdur

2019-cu il Gəncə Dövlət Universitetinin kollektivi üçün əlamətdar hadisələrlə zəngin olmuşdur. Belə hadisələrdən biri də bu günlərdə Bakıda “Startur-Fest 2019” adı altında keçirilən respublika müsabiqəsində reallaşmışdır.




Universitetin Biologiya-kimya fakültəsinin tələbələrindən ibarət komandanın “DiaDondurma” adlı startap ideyası münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin dəstəyi ilə Azərbaycan İnternet Forumu tərəfindən ilk dəfə keçirilən bu müsabiqədə maraqlı və gərgin anlar yaşanmışdır.

Qeyd edək ki, cari ilin aprel-iyul aylarını əhatə edən layihə çərçivəsində Bakı, Gəncə və Lənkəran şəhərlərində yerləşən 8 ali və 1 peşə təhsili müəssisəsində startap müsabiqəsi təşkil olunmuş və qalib komandalar respublika müsabiqəsində iştirak etmək hüququ qazanmışdır. Noyabrın 25-də layihənin bağlanış mərasimində isə qalib komandalar arasında final yarışı keçirilmişdir. Yarışda münsiflər heyətinin qərarı ilə Gəncə Dövlət Universiteti komandası birinci yerə layiq görülmüşdür.

Qeyd edək ki, layihənin məqsədi ölkəmizdə innovasiya fəaliyyətinin təşviqi, paytaxt və region gənclərinin yeni ideyalarının üzə çıxarılması, startap mühitinin yaxşılaşdırılması, o cümlədən innovasiya ekosisteminin bütün üzvləri üçün əlverişli mühitin yaradılması işinə dəstək olmasıdır.

Layihə internet biznesinin, innovasiyaların, startap hərəkatının güclənməsinə, maarifçilik işlərinin təşkilinə, startapçıların formalaşmasına və şəbəkələşməsinə xidmət edir.

*Sabir ƏLİYEV,*
*“Azərbaycan”*

# İcbari tibbi sığorta ilə bağlı maarifləndirmə tədbirləri keçirilib

Qeyri-hökumət təşkilatları (QHT) tərəfindən 2019-cu ilin avqust ayından başlayaraq ölkənin müxtəlif bölgələrində icbari tibbi sığorta sistemi haqqında həyata keçirilən maarifləndirmə tədbirləri başa çatıb. Maarifləndirmə tədbirləri İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (Agentlik) təşəbbüsü və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına (QHT) Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə təşkil olunub.

Tədbirlər ümumilikdə 19 rayon və şəhər olmaqla - Bakı, Sumqayıt və Şirvan şəhərlərində, Şəmkir, Lənkəran, Lerik, Masallı, Şamaxı, İsmayıllı, Sabirabad, Zaqatala, Xaçmaz, Qax, Balakən, Ağdam, Ucar, Göyçay, Astara və Cəlilabad rayonlarında keçirilib.

Habelə Qax rayonunun Əlibəyli, Şıxlar, İlisu kəndləri, Balakən rayonunun Tülü, Qaravəlli, Katex kəndləri, Ağdam rayonunun Quzanlı, Dördyol-1, Yüz evlər, Yeni İmamqulubəyli-1 qəsəbələri, o cümlədən rayonun Əhmədağalı, Çıraqlı kəndlərinin sakinlərinə icbari tibbi sığorta sistemi haqqında məlumat verilib.

Müxtəlif formatlı tədbirlərdə (təlim, seminar, məlumatlandırıcı sessiya, “dəyirmi masa”, ictimai müzakirələr, teledebatlar) iştirak edən rayon və kənd sakinləri, azsaylı xalqların nümayəndələri, məcburi köçkünlər, fərdi sahibkarlar, yerli QHT-lərin və icmaların nümayəndələri, tibb işçiləri və başqaları icbari tibbi sığortanın məqsədi və əhaliyə verəcəyi faydalar, xidmətlər zərfi, icbari tibbi sığorta haqqı və s. barədə məlumatlandırılıblar.

Tədbirlərin sonunda iştirakçıların sualları cavablandırılıb, onlara maarifləndirici buklet paylanılıb. QHT-lərin keçirdikləri görüşlər və tədbirlər yerli mediada geniş işıqlandırılıb.

Qeyd edək ki, “İcbari tibbi sığorta barədə ictimai məlumatlılığın artırılmasına dair təşəbbüslər” mövzusu QHT-lərə Dövlət Dəstəyi Şurasının qrant müsabiqəsinə ilk dəfə olaraq cari ildə daxil edilib. Layihələrin qiymətləndirilməsi nəticələrinə görə 8 qeyri-hökumət təşkilatı qalib olub. “Pediatrik Kardiologiya və Revmatologiya”, “Yoluxucu Xəstəliklərlə Mübarizə”, “Hərbi Cərrahlar”, “Vətəndaş Maarifləndirilməsi”, “Azad İqtisadiyyatın İnkişafına Yardım Mərkəzi”, “Türkdilli Dövlətlərin İqtisadçıları”, “Sağlamlığa Xidmət” və “Gənclərin Sosial İnkişafına Dəstək” ictimai birlikləri əhalinin icbari tibbi sığorta haqqında məlumatlılığının artırılmasında fəal iştirak ediblər.

Agentlik qalib gələn QHT-lərin icbari tibbi sığorta sistemi barədə məlumatlandırılması, əhaliyə ötürüləcək informasiyaların doğruluğunun təmin edilməsi, layihələrin effektivliyinin artırılması, beləliklə də uğurlu nəticələrin əldə olunması məqsədilə təşkilat və layihə rəhbərləri ilə görüş keçirib.

*Elçin CƏFƏROV,*
*“Azərbaycan”*

# "İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktik problemləri" mövzusunda V respublika konfransı keçirilib






Noyabrın 29-da Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyəti və AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun (İTİ) təşkilatçılığı ilə "İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktik problemləri" V respublika konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev fərdi məlumatların mühafizəsinin ən fundamental insan hüquqlarından biri olan şəxsi toxunulmazlıq hüququnun ayrılmaz tərkib hissəsi olduğunu və bunun 1948-ci ildə BMT tərəfindən qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 3-cü və 12-ci maddələrində öz əksini tapdığını vurğulayıb. Azərbaycanda informasiya texnologiyalarının sürətlə inkişaf etdiyini, artıq internet infrastrukturunun bütün ölkəni əhatə etdiyini diqqətə çatdıran akademik Ramiz Mehdiyev ölkəmizdə insanların söz və internet azadlıqlarının yüksək səviyyədə təmin edildiyini, vətəndaşlarımızın müxtəlif sosial şəbəkələrdən, elektron ticarət və digər xidmətlərdən fəal şəkildə istifadə etdiyini və bunların ölkəmizdə fərdi məlumatların qorunması məsələsini aktuallaşdırdığını söyləyib.

Ümumiyyətlə, Azərbaycanda insanların hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasına yönəlmiş, ən müasir tələblərə cavab verən möhkəm qanunvericilik bazasının yaradıldığını qeyd edən Ramiz Mehdiyev bu hüquq və azadlıqların dövlətimiz tərəfindən ən yüksək səviyyədə təmin edilməsini diqqətə çatdırıb. Akademik bildirib ki, fərdi məlumatların mühafizəsi məsələləri elmi problem kimi multidissiplinar xarakter daşıyır və buna görə də digər elmi istiqamətlərlə yanaşı, informasiya texnologiyaları üzrə tədqiqatçılar fərdi məlumatların mühafizəsi proseslərini dərindən araşdırmalı, geniş intellektual imkanlara malik metod və alqoritmlər işləməli, müvafiq proqram məhsulları hazırlamalıdırlar.

Akademik Ramiz Mehdiyev konfransa təqdim edilən məruzələrin fərdi məlumatların mühafizəsinin texnoloji, hüquqi, təşkilati, sosial-iqtisadi və kulturoloji aspektlərinə həsr olunduğunu bildirib və konfransda iştirak edən müvafiq dövlət, biznes və vətəndaş cəmiyyəti sektorlarının nümayəndələrinin iştirakını yüksək qiymətləndirib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə çıxış edərək qlobal informasiya cəmiyyətinin ən aktual problemlərindən biri olan informasiya təhlükəsizliyi üzrə konfransın böyük əhəmiyyətə malik olduğunu söyləyib. Nazir müavini informasiyanın elm, siyasət, dövlət və onun institutları ilə birbaşa əlaqəli olduğunu qeyd edib, onun dövlətin sosial bazasını formalaşdırdığını bildirib.

"Kibertəhlükəsizlik sahəsində baş verən qlobal dəyişikliklər dövlət sektoru və digər sahələri əhatə edir" deyən E.Vəlizadə respublikada informasiya təhlükəsizliyi səviyyəsinin artırılması istiqamətində bu sahədə bir sıra əsas beynəlxalq standartların qəbul edildiyini diqqətə çatdırıb. O bildirib ki, bu da dövlət və özəl strukturlarda informasiya təhlükəsizliyi üzrə bir sıra tədbirlərin görülməsinə imkan verib.

Tədbirin akademiyanın İnformasiya Texnologiyaları İnstitutunda keçirilməsi təşəbbüsünün irəli sürülməsinə görə AMEA-nın və institutun rəhbərliyinə təşəkkürünü bildirən Elmir Vəlizadə ölkədə bu cür konfransların keçirilməsinin müvafiq sahələrin inkişafına və informasiya təhlükəsizliyi məsələlərinə diqqətin daha çox artırılmasına öz töhfəsini verəcəyini söyləyib.

Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin rəis müavini Azər Əhədov konfransın əhəmiyyətini qeyd edərək ölkəmizdə özəl və digər qurumların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsi və informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması, informasiya proseslərinin mühafizəsi, informasiya resurslarının və sistemlərinin mümkün təhdidlərdən qorunması istiqamətlərində görülən işlər haqqında məlumat verib. Məruzəçi təmsil etdiyi qurumun ölkə rəhbərliyi tərəfindən informasiya təhlükəsizliyinin təmin olunması ilə bağlı qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdiyini bildirib.

A.Əhədov Azərbaycanın informasiya təhlükəsizliyinə təhdidlərin qiymətləndirilməsini, mümkün təhdidlərin qarşısının alınması istiqamətində müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini, birgə tədbirlərin planlaşdırılması və həyata keçirilməsini təmin etmək məqsədilə İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradıldığını qeyd edib. O, informasiya cəmiyyətinin inkişafına dair strategiyanın qəbul edilməsi istiqamətində tədbirlər planının həyata keçirildiyini bildirib.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, general-mayor, texnika üzrə elmlər doktoru İqbal Babayev konfransın yeni çağırışlar baxımından xüsusi əhəmiyyət daşıdığını və beynəlxalq miqyasda informasiya təhlükəsizliyinin təminatı sahəsində yeni yanaşmaların ortaya qoyulmasına şərait yaratdığını söyləyib. İ.Babayev AMEA ilə Dövlət Gömrük Komitəsi (DGK) arasında anlaşma memorandumunun imzalandığını xatırladıb. Memorandumun imzalanmasında İnformasiya Texnologiyaları İnstitutunun xüsusi rola malik olduğunu deyən alim onun elmi araşdırmalardan əməliyyat-axtarış tədbirlərində istifadə, informasiya texnologiyalarının tətbiqi, təhsil və elmi-tədqiqat məsələləri ilə əlaqədar qarşılıqlı dəstək və təcrübə mübadiləsinin aparılması, müştərək layihə və tədbirlərin həyata keçirilməsi baxımından əhəmiyyətini qeyd edib.

İ.Babayev gömrük sahəsinin multidissiplinar xarakter daşıdığını söyləyib, DGK-nın akademiyada müxtəlif sahələrdə aparılan elmi istiqamətlər üzrə əməkdaşlıq imkanlarının yaradılmasına maraqlı olduğunu diqqətə çatdırıb.

Qeyd edib ki, Dövlət Gömrük Komitəsində informasiya və kommunikasiya texnologiyaları üzrə layihələr əsas strateji istiqamətlərdən birini təşkil edir və bu istiqamətdə həyata keçirilən layihələr nəticəsində gömrük prosedurlarının sadələşdirilməsi və ticarətin asanlaşdırılması sahəsində mühüm addımlar atılıb.

O bildirib ki, fərdi məlumatların təhlükəsizliyi məqsədilə təşkilatlarda məlumatların mühafizəsinə cavabdeh struktur bölmə yaradılmalı, ölkə üzrə məlumat mühafizəsi mərkəzləşdirilməli və dövlət qurumları tərəfindən funksional idarə edilməli, ölkəmizdə vahid milli informasiya təhlükəsizliyi metodologiyası işlənib tətbiq edilməlidir.

Müasir dövrdə konfransın mövzusunun aktuallığını və tədbirin əhəmiyyətini qeyd edən Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov bu cür tədbirlərin keçirilməsinin informasiya təhlükəsizliyinin aktual problemlərinin müzakirəsi baxımından böyük imkanlara malik olduğunu söyləyib.

Azərbaycanda informasiya təhlükəsizliyi və onun hüquqi təminatının qarşıda duran ən aktual məsələlərdən biri olduğunu qeyd edən Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz qloballaşan dünyada fərdi məlumatların təhlükəsizliyinin təmin edilməsi məsələlərindən danışıb. Süni intellekt, əşyaların interneti, kiberfiziki sistemlər, böyük verilənlər, mobil texnologiyalar, bulud hesablamaları, sosial şəbəkələr kimi texnologiyaların inkişafının fərdi məlumatların təhlükəsizliyi baxımından ciddi problemlər yaratdığını bildirib.

Qeyd edilib ki, cəmiyyətdə informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması, fərdi məlumatların təhlükəsizliyinin etibarlı idarə edilməsi vacib amillərdən biridir. O, ölkədə vətəndaşlara məxsus sosial informasiya və dövlət resurslarının qorunmasının vacib olduğunu, bu sahədə qabaqcıl dövlətlərin təcrübələrinin öyrənilməsinin zəruri olduğunu qeyd edib.

Tədbirdə AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev çıxış edərək ölkəmizdə dövlət qurumlarında İKT-nin tətbiqi işinin genişləndirilməsi, vahid şəbəkə infrastrukturu əsasında təhlükəsiz informasiya mübadiləsinin aparılması məqsədilə tədbirlər görüldüyünü, informasiya təhlükəsizliyinin yüksəldilməsinin daim diqqətdə saxlanıldığını bildirib. Akademik Azərbaycanda informasiya təhlükəsizliyinin təmin edilməsinin qanunvericilik bazasının inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm sənədlərin qəbul edildiyini söyləyib.

R.Əliquliyev İnformasiya Texnologiyaları İnstitutu tərəfindən informasiya təhlükəsizliyi sahəsinə aid qanunvericilik, normativ hüquqi bazanın gücləndirilməsi istiqamətində görülən işlərə elmi dəstək verildiyini, informasiya təhlükəsizliyinin müxtəlif problemlərinin həlli ilə bağlı araşdırmaların aparıldığını bildirib.

Daha sonra konfrans işini plenar iclas və "Fərdi məlumatların təhlükəsizliyinin elmi-texnoloji problemləri", "Fərdi məlumatların təhlükəsizliyinin elmi-humanitar problemləri" və "Fərdi məlumatların təhlükəsizliyinin elmi-praktik problemləri" bölmələri üzrə davam etdirib.

# Azərbaycan nümayəndə heyəti Bişkekdə Türk Şurasının Gənclər və İdman nazirlərinin dördüncü iclasında iştirak edir



Noyabrın 29-da Qırğızıstanın paytaxtı Bişkekdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Gənclər və İdman nazirlərinin dördüncü iclası işə başlayıb. Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Qırğızıstanın Gənclərlə İş, Bədən Tərbiyəsi və İdman Dövlət Agentliyinin direktoru, Qazaxıstanın İnformasiya və Sosial İnkişaf naziri, Türkiyənin Gənclər və İdman naziri, Özbəkistanın Bədən Tərbiyəsi və İdman nazirinin qatıldıqları tədbirdə Azərbaycan Respublikasını Gənclər və İdman naziri Azad Rəhimovun başçılığı ilə nümayəndə heyəti təmsil edir.

Tədbirdə Türk Şurasına üzv dövlətlərin gənclər sahəsində əməkdaşlığı, Gənclər Platforması Baş Assambleyasının 2-ci, Gənc liderlərin 3-cü forumunun tarixlərinin müəyyənləşdirilməsi və digər mühüm məsələlər müzakirə olunub. Bundan başqa, 2020-ci ildə Qazaxıstanda keçiriləcək 2-ci İdman Oyunları Türk Universiadası, 2020-ci ildə Türkiyədə baş tutacaq 4-cü Dünya Köçəri Oyunları, Türk Şurasına üzv dövlətlərin dopinqlə mübarizə məsələsi, Türkiyə Antidopinq Komissiyasının təcrübə mübadiləsi və bu sahəni əhatə edən digər mühüm mövzular da müzakirəyə çıxarılıb.

Nazir Azad Rəhimov iclasda çıxış edərək bildirib ki, hazırda Bişkekdə keçirilən iclasdan əvvəl İstanbulda, Bakıda və Astanada toplantılar keçirilib. Eyni zamanda, daimi olaraq Türk Şurasında bu istiqamətdə işçi qrupu fəaliyyət göstərir. Türk Şurası çərçivəsində gənclər və idman sahələrində əməkdaşlıq düzgün istiqamətdə gedir.

Azərbaycanın 2016-2019-cu illərdə Türk Şurasının gənclər sahəsində 3, idman sahəsində 2 tədbirinə və bir dəfə də nazirlərin iclasına evsahibliyi etdiyini xatırladan Azad Rəhimov bildirib ki, eyni zamanda, Türkiyədə, Qazaxıstanda və Qırğızıstanda keçirilmiş forum, festival, düşərgə və idman yarışlarında Azərbaycan gəncləri və idmançıları iştirak ediblər. Dövlət başçısı İlham Əliyevin istər gənclər, istərsə də idman sahələrinə xüsusi diqqət və qayğı göstərdiyini qeyd edən nazir vurğulayıb ki, bu gün Azərbaycanda 40-a yaxın Gənclər evi və mərkəzi tikilərək gənclərin ixtiyarına verilib. Hazırda Azərbaycanda 45 olimpiya idman kompleksi fəaliyyət göstərir. Bakı Olimpiya Stadionu, Su İdmanı Sarayı, Milli Gimnastika Arenası və digər idman qurğularında ən mötəbər idman yarışları yüksək səviyyədə təşkil olunur.

"Bildiyiniz kimi, keçən ay Türk Şurası Gənclər Platformasının 1-ci Baş Assambleyası Bakıda təşkil edilib. Baş Assambleyanın Türk Şurasının VII Zirvə Görüşü ərəfəsində keçirildiyini nəzərə alsaq, yaxşı bir ənənənin qoyulduğunu görərik. Təklif edirəm ki, Baş assambleyalar məhz Zirvə görüşlərindən əvvəl keçirilsin" deyə Azad Rəhimov bildirib. Həmçinin nazir Türk Şurası Gənclər Platformasının beynəlxalq gənclər təşkilatları ilə sıx əməkdaşlıq əlaqələrinin qurulmasının faydalı olduğunu, hazırda platformaya Azərbaycanın sədrlik etdiyini, mövcud əlaqələrdən və təcrübədən istifadə edərək onun inkişafına töhfə verəcəyini bildirib. Çıxışının sonunda nazir Azad Rəhimov 2020-ci ilin yayında Türk Şurası V Beynəlxalq Gənclər Düşərgəsinin Azərbaycanda keçirilməsini təklif edib.

Səfər çərçivəsində Gənclər və İdman naziri Azad Rəhimov və Qırğızıstanın Gənclərlə İş, Bədən Tərbiyəsi və İdman Dövlət Agentliyinin direktoru Kanat Amankulov bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Sazişi və gənclər siyasəti sahəsində 2020-2021-ci illəri əhatə edən Tədbirlər Planını imzalayıblar.

# AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev İnformasiya Texnologiyaları İnstitutunda yaradılmış innovativ şəraitlə tanış olub



AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev "İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktik problemləri" V respublika konfransı çərçivəsində İnformasiya Texnologiyaları İnstitutunun maddi-texniki bazası və burada yaradılan innovativ şəraitlə yaxından tanış olub.

Akademiyadan AZƏRTAC-a bildirilib ki, AMEA-nın vitse-prezidenti, institutun direktoru, akademik Rasim Əliquliyev rəhbərlik etdiyi qurum haqqında məlumat verib. O qeyd edib ki, institut elmi tədqiqatlar, tədris-innovasiya, e-kitabxana, multimedia, "AzScienceNet" elm kompüter şəbəkəsinin Data Mərkəzi, eləcə də internet xidmətləri mərkəzi, şəbəkə təhlükəsizliyi və "AzScience-CERT" kimi şəbəkə əməliyyat mərkəzlərindən ibarətdir.

Alim institutda Big Data analitika, kibertəhlükəsizlik, proqram mühəndisliyi, elektron elm, informasiya iqtisadiyyatı, sosial şəbəkələrin analizi və digər istiqamətlərdə elmi tədqiqatların innovativ tələblərə uyğun aparıldığını bildirib. Qeyd edib ki, institut müvafiq dövlət proqramlarının icrasında yaxından iştirak edir və elektron elmin formalaşdırılmasına mütəmadi olaraq dəstək göstərir.

"AzScienceNet" şəbəkəsinin fəaliyyəti haqqında məlumat verən institutun texnologiyalar üzrə direktor müavini, texnika üzrə fəlsəfə doktoru, dosent Rəşid Ələkbərov şəbəkənin ölkədə elm və təhsil sahələrinin inteqrasiyasında böyük imkanlara malik olduğunu söyləyib. Bildirib ki, AMEA-nın elmi-tədqiqat müəssisələri ilə yanaşı, ölkənin təhsil müəssisələri də institutun "AzScienceNet" şəbəkəsi və Data Mərkəzin xidmətlərindən yararlanır.

İnstitutun tədris-innovasiya mərkəzi barədə məlumat verən mərkəzin rəhbəri, texnika üzrə fəlsəfə doktoru Rəsmiyyə Mahmudova burada AMEA-nın magistrlərinə ümumi fənlərin tədrisi və imtahanların qəbulu, müəssisə və təşkilatların əməkdaşları və digər şəxslər üçün informasiya texnologiyalarının müxtəlif istiqamətləri üzrə kursların, o cümlədən distant kursların, seminar və konfransların təşkili işlərinin həyata keçirildiyini deyib. O, rəhbərlik etdiyi mərkəzin nəzdində fəaliyyət göstərən distant tədris mərkəzi və vikimərkəzin fəaliyyəti barədə də danışıb.

AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev həmçinin institutun ən müasir texnologiyalarla təchiz edilmiş multimedia mərkəzi və "İnternet kafe"nin fəaliyyəti ilə də tanış olub.

# Moskvada Azərbaycan-Rusiya Birgə Demarkasiya Komissiyasının səkkizinci iclası

Noyabrın 27-29-da Moskvada Azərbaycan-Rusiya Birgə Demarkasiya Komissiyasının səkkizinci iclası keçirilib.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin demarkasiyası prosesinin davam etdirilməsi ilə bağlı məsələlər müzakirə edilib, komissiyanın 2020-ci il üçün iş planı təsdiq edilib və iclasın protokolu imzalanıb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu barədə Azərbaycan-Rusiya Birgə Demarkasiya Komissiyasının mətbuat üçün bəyanatında deyilir.

Bildirilib ki, görüş mehriban qonşuluq və konstruktiv dialoq ruhunda keçirilib. Birgə komissiyanın növbəti iclasının Azərbaycan Respublikasının ərazisində keçirilməsi nəzərdə tutulur. İclasın keçirilmə tarixləri diplomatik kanallarla razılaşdırılacaq.

# Bakıda NATO-nun təlim kursu



Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2019-cu il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında "NATO-da əməliyyatların qiymətləndirilməsi" mövzusunda təlim kursu keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, NATO-nun Birləşmiş Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən keçirilən kursda alyansın nümayəndələri dinləyicilərə əməliyyatların planlaşdırılması, layihələndirilməsi və qiymətləndirilməsi prosesi, məlumatların təhlili metodları və digər mövzularda brifinqlər təqdim ediblər. Kurs müddətində həmçinin praktiki qrup çalışmaları yerinə yetirilib.

Sonda kursun iştirakçılarına sertifikatlar təqdim olunub.

# Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin növbəti iclası keçirilib.

Akademiyadan AZƏRTAC-a bildirilib ki, AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev tədbiri giriş sözü ilə açaraq gündəlikdəki məsələlərlə bağlı məlumat verib.

Əvvəlcə AMEA-nın prioritet elmi istiqamətləri müzakirə olunub. Akademik Ramiz Mehdiyev bildirib ki, dünyada elmi istiqamətlərin, peşə və ixtisasların sürətlə yeniləndiyi, yüksək texnologiyaların tətbiqinin genişləndiyi hazırkı şəraitdə Azərbaycan elminin prioritet istiqamətlərinə yenidən baxılmalı, bu prioritetlərin müəyyənləşdirilməsində bir tərəfdən müasir elmin inkişaf tendensiyaları, digər tərəfdən ölkənin sosial-iqtisadi inkişaf istiqamətləri əsas götürülməlidir. Biliklər iqtisadiyyatının aparıcı inkişaf istiqamətlərindən olduğu müasir dövrdə tətbiqi tədqiqatların, xüsusən də elmi-innovativ fəaliyyətin gücləndirilməsinin vacibliyini bildirən akademik Ramiz Mehdiyev bununla bağlı konkret addımların atılmasının zəruriliyini diqqətə çatdırıb. Müzakirələrdən sonra yeni elmi prioritetlərin müəyyənləşdirilməsi ilə bağlı Rəyasət Heyətinin üzvlərinə və AMEA-nın müvafiq qurumlarına tapşırıqlar verilib.

Gündəlikdəki növbəti elmi-təşkilati məsələ AMEA-nın fəaliyyətinin optimallaşdırılması ilə bağlı tədbirlər planı haqqında olub. Məsələ ilə bağlı akademik Ramiz Mehdiyev bildirib ki, AMEA-da fundamental və tətbiqi tədqiqatların müasir standartlar səviyyəsində aparılması, elm sahəsində idarəetmə sisteminin və elmi infrastrukturun modernləşdirilməsi, yüksəkixtisaslı kadrların hazırlanması, elmlə təhsilin inteqrasiyası, elmi işçilərin sosial təminatının yaxşılaşdırılması, elmin normativ hüquqi bazasının və informasiya təminatının gücləndirilməsi, eləcə də Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının sürətləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilməlidir. Buna görə də AMEA-nın fəaliyyətinin optimallaşdırılması ilə bağlı müvafiq tədbirlər planı hazırlanıb. İclasda tədbirlər planı geniş müzakirə olunub, akademiyanın elmi bölmələrinə, elmi müəssisə və təşkilatlarına, AMEA Rəyasət Heyəti aparatının aidiyyəti idarə və şöbələrinə bu istiqamətdə müvafiq tapşırıqlar verilib.

Müzakirəyə çıxarılan növbəti elmi-təşkilati məsələ "Azərbaycan Respublikasının müstəqillik tarixi (1991-2020-ci illər)" çoxcildliyinin hazırlanması ilə bağlı olub. Akademik Ramiz Mehdiyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin memarı olduğu müasir Azərbaycanın müstəqillik tarixi ilə bağlı ayrıca kitabın hazırlanmasının elmi və ictimai baxımdan olduqca böyük əhəmiyyətə malik olduğunu iclas iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan məhz Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində iqtisadi dirçəliş, ictimai-siyasi və sosial həyatda tərəqqi yoluna qədəm qoyub. Dahi lider Heydər Əliyevin dövlət quruculuğu siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti nəticəsində isə ölkəmizin beynəlxalq nüfuzu sürətlə yüksəlib, sosial-iqtisadi inkişaf istiqamətində mühüm uğurlar əldə edilib. Akademik Ramiz Mehdiyev hazırlanacaq çoxcildliyin müstəqillik tariximizin ictimai-siyasi gerçəkliklərini, əldə olunan uğur və nailiyyətləri obyektiv olaraq özündə əks etdirməli olduğunu bildirib. Daha sonra "Azərbaycan Respublikasının müstəqillik tarixi (1991-2020)" çoxcildliyinin strukturu müzakirə edilib və onun hazırlanması üçün müvafiq tapşırıqlar verilib.

Sonra AMEA Rəyasət Heyəti aparatının strukturu ilə bağlı məsələ müzakirə edilib. Qeyd olunub ki, Rəyasət Heyəti aparatının strukturunun və idarəetmə sisteminin, habelə kadrların seçilməsi və yerləşdirilməsi işinin təkmilləşdirilməsi məqsədilə AMEA prezidentinin 2019-cu il 21 noyabr tarixli sərəncamı ilə komissiya yaradılıb. Akademik Ramiz Mehdiyev komissiya tərəfindən hazırlanmış AMEA Rəyasət Heyəti aparatının yeni strukturunun layihəsi ilə iclas iştirakçılarını tanış edib. Təqdim olunan layihə Rəyasət Heyəti üzvləri tərəfindən geniş müzakirə edilib.

# Atəşkəs rejimi 23 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Paytaxtın uşaq bağçalarında sanitar-epidemioloji vəziyyət araşdırılıb

Artıq 2 aydan çoxdur ki, Bakı şəhərinin məktəbəqədər təhsil müəssisələrində sanitar-epidemioloji vəziyyətin öyrənilməsi ilə bağlı Bakı Şəhər İcra Hakimiyyəti və aidiyyəti qurumların nümayəndələrindən ibarət komissiya tərəfindən yoxlamalar aparılır.

Qeyd edilən məsələ ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətində geniş tərkibli seminar-müşavirə keçirilmişdir. Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının rəhbəri Elgin Həbibullayev çıxış edərək Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən məktəbəqədər təhsil müəssisələrinə göstərilən diqqət və qayğıdan danışmış, Bakı şəhərində tikilən və əsaslı təmir olunan uşaq bağçaları barədə məlumat vermişdir.



Daha sonra müşavirədə uşaq bağçalarında sanitar-epidemioloji vəziyyət və bununla bağlı aparılan araşdırmalar müzakirə edilmişdir. Komissiyanın apardığı yoxlamalar nəticəsində uşaq bağçalarında sanitar-epidemioloji vəziyyətin əvvəlki illərlə müqayisədə daha qənaətbəxş olması müəyyən edilmiş, lakin bununla yanaşı, bəzi bağçalarda müəyyən nöqsanlar aşkarlanmışdır. Müşavirədə aşkar edilmiş nöqsanlar, onların aradan qaldırılması yolları geniş müzakirə edilmişdir. Keçirilən seminar-müşavirədə bağçalarda sanitar epidemoloji vəziyyətin lazımi səviyyədə saxlanılması ilə əlaqədar mütəxəssislər və tibb işçiləri tərəfindən ətraflı izahat verilmişdir.

Toplantıda aşkarlanmış nöqsanlarla əlaqədar məktəbəqədər təhsil müəssisələrinin rəhbərlərinə vəziyyətin qısa müddətdə aradan qaldırılması ilə bağlı tapşırıqlar verilmişdi. Bu məsələ nəzarətə götürülmüşdür.

Müşavirədə həmçinin bağçalara elektron qəbula keçidlə bağlı məlumat verilmişdir. Bildirilmişdir ki, bu istiqamətdə işlər başa çatmaq üzrədir və gələn ilin əvvəlindən pilot layihə olaraq Nizami rayonunda bağçalara elektron qaydada qəbula başlanacaq, sonradan isə digər rayonlar da yaradılan elektron sistemə qoşulacaqdır.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# "Müsəlman alimlərinin elm və texnologiyanın inkişafına töhfələri"





Ötən gün Azərbaycan İlahiyyat İnstitutu (AİI) və Bakı Yunus Əmrə İnstitutunun "Müsəlman alimlərinin elm və texnologiyanın inkişafına töhfələri" mövzusunda birgə keçirdiyi elmi-praktik konfrans baş tutub.

AİI-nin rektoru ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov konfransda bildirib ki, ölkəmizdə elmin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Dövlətin gələcəyi, iqtisadi, siyasi və hərbi qüdrəti onun elmi potensialı ilə bilavasitə bağlıdır. İnstitut rəhbəri qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin elm və təhsil sahəsində müəyyənləşdirdiyi siyasət bu gün Prezident cənab İlham Əliyev tərəfindən yeni mərhələdə uğurla davam etdirilir: "Son illər ölkəmizdə elmin nüfuzunun yüksəldilməsi, cəmiyyətin inkişafında onun əhəmiyyətinin artırılması, elmi fəaliyyətin stimullaşdırılması sahələrində bir sıra dövlət əhəmiyyətli tədbirlər həyata keçirilib. Elmi fəaliyyətin təşkili, idarə edilməsi, inkişafı, innovasiya fəaliyyətinin dəstəklənməsi və nailiyyətlərin stimullaşdırılması sahələrində xeyli irəliləyiş və yeniliklər olub".

İnstitut rəhbəri qeyd edib ki, AİI yarandığı gündən öz fəaliyyətində milli-mənəvi dəyərlərimizin təbliğinə, tələbələrdə vətənpərvərlik ruhunun, vətənə sevginin və ona bağlılığın gücləndirilməsinə, tanınmış Azərbaycan mütəfəkkirlərinin həyat və yaradıcılığının öyrənilməsinə xüsusi önəm verir.

C.Məmmədov islam dininin müsəlmanları elm öyrənməyə, biliklərini artırmağa təşviq etdiyini bildirib. Azərbaycanlı alimlərin - Şeyx Məhəmməd Bakuvi, Seyid Yəhya Bakuvi, Nəsirəddin Tusi, Əcəmi Naxçıvani kimi alimlərin islam mədəniyyətinin formalaşmasında yaxından iştirak etdiyini vurğulayıb.

### İslam dünyası ixtiraları ilə elm tarixində iz qoyan görkəmli mütəfəkkirlər yetişdirib

Bakı Yunus Əmrə İnstitutunun müdiri, dosent Cihan Özdemir vurğulayıb ki, islam dünyası bu günədək ixtiraları ilə elm dünyasına işıq salmağı bacaran, elm tarixində iz qoyan görkəmli mütəfəkkirlər yetişdirib. Dünyanın bir çox müsəlman ölkəsində fəaliyyət göstərən bu elm adamları bugünkü tərəqqinin bünövrəsəni təşkil edirlər.

Professor Fuat Sezgin, İslam Elm Tarixi Araşdırmalar Vəqfinin sədri Mecit Çetinkaya islam dininin elmə verdiyi önəmdən söhbət açaraq müsəlman alimlərinin dünya elminə bəxş etdiyi töhfələrdən danışıblar. İslam elm adamlarının tanınmış simalarından biri Fuat Sezgin haqqında danışan M.Çetinkaya qeyd edib ki, alimin vəfatından sonra Türkiyə Respublikasında bu il "Fuat Sezgin ili" elan olunub.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov VIII-XIII əsrlərdə islam ölkələrində elmə verilən böyük qiymət sayəsində bir sıra alimlərin yetişdiyini və onların dünya mədəniyyətinə böyük töhfələr verdiyini diqqətə çatdırıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev islamın meydana gəldiyi dövrdən etibarən savadsızlığa, cəhalətə, mövhumata qarşı mübarizə apardığını, müsəlmanları elmə, təhsilə, maariflənməyə, onu yaymağa, alimlərə hörmət bəsləməyə çağırdığını vurğulayıb.

Türkiyənin Azərbaycandakı səfirliyinin dini məsələlər üzrə müşaviri Zeki Yavuzyılmaz qeyd edib ki, tarixən iki qardaş ölkədə müsəlman alimlər yaşayıb, onlar dünya elminə töhfələrini veriblər.

### Böyük müsəlman mütəfəkkirləri, alimləri gənc nəslə tanıdılır

Milli Məclisin deputatı, akademik Gövhər Baxşəliyeva mövzunun aktuallığına və əhəmiyyətinə toxunub. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov böyük müsəlman mütəfəkkirlərinin, alimlərinin gənc nəslə tanıdılması istiqamətində keçirilən tədbirlərin əhəmiyyətini vurğulayıblar.

Kırıkkale Universitetinin rektoru, "Fuat Sezgin ili" layihələrinin koordinatoru professor Ersan Aslan, Kırşehir Ahi Evran Universitetinin rektoru professor Vatan Karakaya, Əhməd Yasəvi Universiteti İdarə Heyətinin sədri professor Musa Yıldız mövzu ətrafında məruzələrini davam etdiriblər. "Müsəlman alimlərinin elm və texnologiyanın inkişafına töhfələri" mövzusunda keçirilən tədbiri yüksək qiymətləndirib, Türkiyə Respublikasında da bu il sözügedən mövzuda müxtəlif tədbirlərin həyata keçirildiyini, professor Fuat Sezginin islam mədəniyyətinə və dünya elminə göstərdiyi xidmətlər haqqında danışıblar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Bir ailənin təsərrüfat uğurları

## Bu, pambıq əkib-becərmək texnologiyasını yaxşı bilməyin nəticəsidir

Tuqay meşələrinin seyrəldiyi yerdə, Kür çayının sağ sahilində yerləşir Zərdabın Əlvənd kəndi. Bir vaxtlar böyük bir kolxoz təsərrüfatında 1000 hektardan çox əkin-biçin yeri vardı.

Bu kənddə adamlar ən çox pambıqçılığa meyil edirdilər. Heç kəs əkin-biçinin təyinatını özü aparmırdı. Hər şey hazır reseptlərlə yuxarılardan gəlirdi. Əkinçi yalnız öz əməyini sərf edirdi və bunun qiymətini də yuxarılar təyin edirdilər. Sovet dönəmində pambıqçının əməyi son dərəcə aşağı qiymətə dəyərləndirilirdi. Bir kiloqram pambığa 8-10 qəpikdən artıq pul verilmirdi. Müstəqillik çox şeylərin dəyərini dəyişdi. Əkinçilərə tam sərbəstlik verildi. Hər kəs öz torpaq payını istədiyi təmayüldə əkib-becərə bilir, gəlirini-çıxarını da özü hesablayır. Hansı sahə daha çox səmərə verirsə, gəlir gətirirsə, o sahəyə meyil-maraq artır. Əkinçi ona verilən sərbəstlikdən daha düzgün faydalanır. Ailə podratlarının sayı ildən-ilə artır. Cəmi 5 nəfər üzvü olan ailə podratının birinə Cəmaləddin Mirəliyev rəhbərlik edir. Özü deyir ki, təsərrüfatımızda adamların sayı az olsa da, məhsuldarlıq yüksəkdir. Əslində biz köhnə ailə ənənələrini başqa üsulda davam etdiririk. Pambıqçılıq çox gəlirli sahədir. Bunu hər birimiz yaxşı bilirik. Bilirik ki, bu gəlirli sahəni inkişaf etdirmək üçün maraq yaradılmalıdır. Gərək gördüyümüz işin dəyəri düzgün qiymətləndirilsin. Onda nəticə bizi qane edir. Biz rayondakı pambıq emalı zavodu ilə müqavilə bağlamışıq. Şərtlər hər iki tərəfin razılığı ilə qəbul olunur. Məhsulun satış qiymətinə özümüz nəzarət edirik. Açığını deyim ki, sovet dövrü ilə müqayisədə bu gün pambığın hər kiloqramının satış qiyməti ən azı 10 dəfə yüksəkdir. Belə stimul yarananda işə maraq da artır. Bir vaxtlar pambıqçılıqda sosializm yarışı keçirilirdi. Bu gün biz yarışı ailə daxilində aparırıq. Bizim təsərrüfat daxilində həyat yoldaşım Səadətlə qızım Ceyhunə ana-bala yarışırlar. Belə sağlam əmək bəhsləşməsinin işin nəticəsinə köməyi çoxdur. Bizim heç kəsdən təsərrüfat asılılığımız yoxdur. Əkinə-biçinə özümüz nəzarət edirik, məhsulun satış qiymətini də özümüz təyin edirik.

Cəmaləddin kişi deyir ki, hər ilin nəticələrini təhlil edir, məhsuldarlığı artırmaq üçün yeni yollar axtarırıq. Ötən il nə qədər cəhd göstərsək də, hektarın məhsuldarlığını 30 sentnerdən yuxarı qaldıra bilmədik. Amma bu il düzgün aqrotexniki tədbirlər nəticəsində məhsuldarlığı xeyli artırmışıq. Artıq pambıq yığımının sonuncu mərhələsidir. Hesablamalarımız göstərir ki, məhsuldarlığı ən azı 5 sentner artırmışıq. Doğrudur, ailə podratı daxilində əkinçiliyin təyinatını tez-tez dəyişənlər də olur. Amma biz bu üsula üstünlük vermirik, ona görə ki, pambıqçılığın sirlərini daha yaxşı bilirik. Bizdə əvvəllər də bu sahə ilə məşğul olublar. Ona görə də ailə ənənəsini davam etdirmək bizə o qədər də çətin deyil. Çalışırıq ki, aran yerində havaların nisbətən mülayim keçməsindən tam faydalana bilək. Zəhmətimizi itkiyə verməyək.

Əkinçiliyin öz qayda-qanunları var. Gərək vaxtdan da səmərəli istifadə edəsən, işin təşkilini də düzgün qurasan. Bizdə hər kəs öz işinin nəticəsini təhlil etməyi bacarır. Bu il də yığım dövründə nəticələr ürəyimizcə oldu. Hər şeydən əvvəl məhsul itkisinə yol vermədik. Pambıq emalı zavodu ilə əlaqələrimiz də düzgün qurulub. Doğrudur, mübahisəli məqamlar da olur. Amma hər şeyi yoluna qoyuruq. Müqavilə şərtlərinə tərəflər düzgün əməl edəndə əlavə mübahisələrə ehtiyac qalmır.

Yeni təsərrüfat formasının üstünlüklərindən qədərincə faydalana bilirik. Bizi ən çox sevindirən odur ki, məhsulumuzu ucuz qiymətə satmırıq. Bu işə dövlət nəzarəti də ildən-ilə güclənir, özü də əkinçinin xeyrinə. Son 5 ildə pambığın 1 kiloqramının satış qiyməti ən azı 3 dəfə dəyişib. Bu dəyişikliklərin hamısı bizim ümumi işə marağımızı artırır.

Cəmaləddin kişi deyir ki, nəticə o vaxt uğurlu olur ki, bizə kənar müdaxilələr olmur. Əkinçinin-biçinçinin əməyi istismar olunmur. Əksinə, güzəştlər xeyli artıb. Elə təkcə bu il bizə satılan gübrənin qiymətində ciddi fərq vardı. Hətta biz güzəştlə satılan gübrədən istifadə edib, pulunu sonra ödəyirik. Belə şərtlər əkinçiyə daha çox qazanmağa imkan yaradır. Bütün bunlar dövlətin bizə köməyidir.

Pambıqçılıq həm gəlirli sahədir, həm də çox zəhmət tələb edir. Ona görə də bu sahəyə ayrılan güzəştlərin limiti yüksəlməlidir. Əkinçi açıq-aşkar bilməlidir ki, onun əməyi dəyərləndirilir. Bir faktı da deyim ki, bu il rayonumuzda pambıqçılığa üstünlük verənlərin sayı xeyli çoxalıb. Yeni təsərrüfat sahələri yaradılıb.

Cəmaləddin kişi deyir ki, bir fərqi də qeyd etmək istəyirəm. Əgər əvvəllər pambıqçılığa ayrılan hektarların genişləndirilməsi Tuqay meşələrinin seyrəldilməsi, azaldılması hesabına başa gəlirdisə, bu gün belə işlərə son qoyulub. Hər kəs meşə təsərrüfatını elin sərvəti kimi qoruyur. Hər kəs yaxşı başa düşür ki, meşənin xeyri çoxdur. Bizim əsas məqsədimiz odur ki, hektarların sayını artırmadan məhsuldarlığı yüksəldək.

***Bəşir ŞƏRİFLİ,***
***"Azərbaycan"***

# Bakı Ali Neft Məktəbinin 8 yaşı tamam olur

Bakı Ali Neft Məktəbinin (BANM) yaranmasının səkkiz ili tamam olur. Yarandığı gündən Azərbaycan universitetlərinin reytinq cədvəlində öz liderliyini saxlayan BANM Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 noyabr 2011-ci il tarixli 539 nömrəli fərmanı ilə SOCAR-ın strukturunda yaradılıb.




2017-ci il may ayının 1-də Qafqaz regionunun ən böyük kampusu olan BANM-in yeni kampusu da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə açılaraq istifadəyə verilib.

Cari ildə BANM-in dövlət sifarişli ixtisaslarına qəbul olmaq üçün ümumi orta bal - 678 bal olub.

2019/2020-ci tədris ilində BANM-in 23 tələbəsi Prezident təqaüdünə layiq görülüb ki, bu göstərici üzrə də BANM ölkə üzrə ali məktəblər arasında ön sıralarda yer alıb.

Ali məktəb səkkiz illik fəaliyyətində artıq üçüncü məzun buraxılışı həyata keçirib. Məzunların işlə təmin olunması isə 100 faiz təşkil edir. Bu gün BANM-i bitirən məzunlar yerli və transmilli şirkətlərdə çalışır və dünyanın aparıcı universitetlərində təhsillərini davam etdirirlər.

8 illik uğurlu fəaliyyəti ərzində ali məktəb ölkədə peşəkar mühəndislərin hazırlanmasında SOCAR, STAR Refinery, BP, ABB, Emerson, Schneider Electric, Maire Tecnimont, Halliburton, Microsoft, Schlumberger, Equinor, Total, Avandsis Group və digər ən qabaqcıl şirkətlərlə əməkdaşlıq etmişdir ki, bu da BANM-in məzunlarının beynəlxalq standartlara uyğun kadrlar kimi yetişməsinə imkan yaradır.

***"Azərbaycan"***

# Lerikdə Nəsimi bayramı





İki gün ara verməyən qar dayanmışdı. Dağların arxasından boylanan günəş havanın şaxını sındırmışdı. Gediş-gəliş erkən başlamışdı. Asfalt yollardan aşağı enən maşınlar Lerik şəhərindəki mədəniyyət sarayına yan alırdı.

Bayramsayağı geyinmiş tamaşaçılar qarşılanır, zala dəvət olunur, yerlərini tuturlar. Onlar dahi mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş ümumrayon tədbirinə gəlmişlər.

Musiqinin sədaları altında pərdə qalxır. Səhnədə böyük şairin portreti asılmışdır. "Cahana sığmayan şair" ədəbi-bədii kompozisiyası başlanır. Jurnalist Hüsaməddin Abbasov Nəsiminin ömür yolu və bənzərsiz yaradıcılığı haqqında məlumat verir.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin ədəbiyyatımızın klassiklərinin irsinə verdiyi yüksək dəyərdən, Nəsiminin ideyalarının müasir dövrdə də əksini tapdığından, onun əsərlərinin insanlığı mənəvi kamilliyə, ədalətə, humanizmə çağırdığından bəhs etdi.

Tamaşaçılar həvəskar qiraətçilər Sədrəddin Ağaxanlı, Nərmin Abbasova, Aysun Hüseynova, Valid Məmmədov şairin qəzəllərindən parçalar oxudular. Şəhər musiqi məktəbinin müəllimləri Səyyad Əhədov və Fikrət Nuriyev Nəsiminin qəzəllərindən muğam üstə ifa etdilər.

Tədbirdə yerli yazarlardan Hüseynbala Əliyev, Xanlar Həmid, Qəhrəman Əliyevin çıxışları maraqla dinlənildi. Onlar cəmi 48 il ömür sürmüş Nəsiminin 650 ildən sonra da müasir olduğunu vurğuladılar.

Rayon mərkəzi kitabxanasında Nəsiminin müxtəlif illərdə çap olunmuş əsərlərindən ibarət kitab sərgisi açılmışdır.

Bu payız günündə keçirilən musiqili-ədəbi tədbir ürəklərə hərarət gətirdi, əsl bayrama çevrildi.

***Həmzə VƏLİMƏMMƏDOV,***
***Əməkdar jurnalist***

Azercell

# "Azərbaycan Biznes Keys Yarışması"nın iştirakçıları "Azercell"də





Ölkədə nüfuzlu biznes müsabiqələri sırasında olan "Azərbaycan Biznes Keys Yarışması"nın bir qrup iştirakçısı Azercell-də təlimə qatılıb.

Təlim sessiyası "Azercell Telekom" MMC-nin İnsan Kapitalının İdarə Edilməsi departamentinin əməkdaşları tərəfindən aparılıb. İnsan Kapitalının İdarə Edilməsi departamentinin İstedadların İdarə Edilməsi üzrə konsultantı Aytən Fərzəliyeva ölkənin lider mobil operatorunun fəaliyyəti və strukturu barədə tələbələri ətraflı şəkildə məlumatlandırıb. İstedadların Cəlb Edilməsi və Professional İnkişaf şöbəsinin mütəxəssisi Vahida Orucova isə sessiya zamanı işə qəbul və seçim prosesi, əmək bazarında mövcud tendensiyalar və digər aktual mövzulara toxunub. Həmçinin görüşdə iştirakçıları maraqlandıran suallar ətrafında maraqlı diskussiyalar aparılıb.

İştirakçı komandalar yarışmaya dəstək olan sponsor şirkətlər tərəfindən biznesin təhlili, strategiyanın qurulması, təqdimat bacarığı və digər mövzularda təşkil edilən təlimlərə qatılacaq.

Qeyd edək ki, "Azərbaycan Biznes Keys Yarışması" ali təhsil ocaqlarının maliyyə, biznes, iqtisadiyyat sahəsində təhsil alan bakalavr və magistr tələbələri arasında keçirilən yarışmadır.

"Azercell Telekom" MMC təhsilə və gənclərin inkişafına hər zaman xüsusi qayğı ilə yanaşır. Bir sıra ali təhsil mərkəzləri ilə əməkdaşlıq memorandumları imzalayan şirkət, tələbələrin innovativ ideyalarının reallaşdırılmasına, onların təcrübəli və peşəkar kadr olaraq yetişdirilməsinə öz töhfəsini verir.


**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti**

**2019-cu il üçün xərclər smetasında "dəftərxana və təsərrüfat xərcləri" (221100) maddəsinə ayrılmış vəsaitlər hesabına**

***kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 04.12.2019-cu il tarixə qədər Dövlət Əmək Müfəttişliyi Xidmətinin aşağıdakı ünvanına təqdim olunmalıdır.

**Əlaqələndirici şəxs (Anar Məmmədov). Ünvan: Bakı şəhəri, S.Əsgərova küç.85 Telefon: (012) 594-17-26**

***Tender komissiyası***

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi
### *açıq tenderə dəvət edir*

- Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi üçün avadanlıqların və arxivasiya işinin təşkilinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT 1 üzrə 350 (üç yüz əlli) manat**
**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT: IBAZAZ2X**
**H/hesabı: AZ25IBAZ38090039446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.12.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **30.12.2019-cu il saat 11:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **30.12.2019-cu il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi
### *açıq tenderə dəvət edir*

- Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi üçün avadanlıqların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT 2 üzrə 50 (əlli) manat**

**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT: IBAZAZ2X**
**H/hesabı: AZ25IBAZ38090039446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.12.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **30.12.2019-cu il saat 10:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **30.12.2019-cu il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi
### *açıq tenderə dəvət edir*

-DOST Agentliyinin və DOST mərkəzlərinin əməkdaşlarına məsləhət xidmətlərinin göstərilməsi üzrə xidmətin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 200 (iki yüz) manat**

**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT: IBAZAZ2X**
**H/hesabı: AZ25IBAZ38090039446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.12.2019-cu il saat 16:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **30.12.2019-cu il saat 15:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **30.12.2019-cu il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 28.11.2019-cu il tarixdə keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC üçün elektrik mühərriklə çalışan avtomobillərin satın alınması üzrə tenderdə iddiaçıların sayı 3 (üç)-dən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti
### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: "Aztelekom" MMC-nin inzibati binasında və struktur bölmələri, o cümlədən kənd EATS-nin cari təmir-tikinti işlərinin satın alınması.

**İştirak haqqı: 500 (beş yüz) manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **26 dekabr 2019-cu il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **09 yanvar 2020-ci il saat 11:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **09 yanvar 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması məqsədilə 11 oktyabr 2019-cu il tarixdə elan etdiyi açıq tenderdə Tender komissiyasının qərarına əsasən "Əli -Tekstil" MMC tenderin qalibi elan edilmiş və qalib müəssisə ilə müvafiq müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsin (DOST Agentliyi) tabeliyində fəaliyyət göstərən 1 saylı Bakı DOST Mərkəzi inzibati binada server otağının tələb olunan standartlara uyğun avadanlıqlarla təchiz olunması üzrə malların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar +99412 525-50-26 (daxili: 9307) nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 05 dekabr 2019-cu il saat 17:00-dək Bakı şəhəri, İ.Qutqaşınlı, 86 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 20.09.2019-cu il tarixdə elan etdiyi dövlət ümumtəhsil müəssisələrində çalışan təhsilverənlərin əlavə təhsili üzrə təlimlərin satın alınmasına dair keçirilən təkliflər sorğusunun nəticələri aşağıdakı kimi olmuşdur:

Riyaziyyat fənnini tədris edən müəllimlər üçün ixtisasartırma təlimləri üzrə "Psixologiya Elmi-Tədqiqat İnstitutu" MMC qalib olmuş və onunla 29 noyabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

Humanitar fənləri tədris edən müəllimlər üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimləri üzrə "Təhsildə İnnovativ Texnologiyalar Əlavə Təhsil Mərkəzi" MMC qalib olmuş və onunla 26 noyabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

İbtidai təhsil səviyyəsində tədris aparan müəllimlər üçün ixtisasartırma təlimləri üzrə Odlar Yurdu Universiteti qalib olmuş və onunla 25 noyabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

İbtidai təhsil səviyyəsində dərs deyən müəllimlər üçün Azərbaycan dili və riyaziyyat fənlərinin məzmunu, ehtiyat dərsliklərin tətbiqi və metodikası üzrə ixtisasartırma təlimi üzrə "Təhsildə İnnovativ Texnologiyalar Əlavə Təhsil Mərkəzi" MMC qalib olmuş və onunla 26 noyabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində açıq tender metodu ilə Bakı Protez-Ortopedik Bərpa Mərkəzinin avadanlıqların satın alınması ilə əlaqədar satınalma müsabiqəsinin qalibi "Araş" firması olmuşdur.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevə əzizi

**VAQİF NƏSİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevə əzizi

**VAQİF NƏSİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevə əzizi

**VAQİF NƏSİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevə əzizi

**VAQİF NƏSİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Baş Prokurorluğunun kollektivi Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin Daxili təhlükəsizlik şöbəsinin böyük prokuroru Əsəd Əliyevə anası

**MANİYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevə əzizi

**VAQİF NƏSİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu və kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevə əzizi

**VAQİF NƏSİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8909
Sifariş 3983
Qiyməti 40 qəpik